**AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİRLİYİ**
**XƏZƏR UNİVERSİTETİ**
**HUMANİTAR, TƏHSİL VƏ SOSİAL ELMLƏR FAKÜLTƏSİ**

**Dillər və ədəbiyyatlar departamenti**

İstiqamətin şifri və adı: 060201
İxtisaslaşmanın adı: Azərbaycan ədəbiyyatı

Magistrant: **RƏŞİDƏ ƏDALƏT qızı RƏŞİDLİ**

magistr dərəcəsi almaq üçün

# RÜSTƏM BEHRUDİ POEZİYASINDA TÜRKÇÜLÜK

mövzusunda

DİSSERTASİYA İŞİ

Elmi rəhbər: **Dilbər Zeynalova,**
filologiya üzrə fəlsəfə doktoru, dosent

**Bakı-2020**

# M Ü N D Ə R İ C A T

**GİRİŞ**................................................................................................................................................................3

**I FƏSİL. TÜRKÇÜLÜK HƏRƏKATININ TƏŞƏKKÜLÜ VƏ İNKİŞAFI**

1.1. Türkçülük ideologiyası və onun tarixi kökləri.....................................................7

1.2. Azərbaycan ədəbiyyatında türkçülük..................................................................16

**II FƏSİL. RÜSTƏM BEHRUDİ POEZİYASINDA DİL, VƏTƏN, MİLLƏT İDEYASININ POETİK DƏRKİ**

2.1. R. Behrudi şeirlerində türkçülük ideyalarının təsəccümü....................................35

2.2. R.Behrudi poeziyasında tarix və müasirlik.........................................................50

**NƏTİCƏ**..........................................................................................................65

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT**..................................................................68

## GİRİŞ

**Mövzunun aktuallığı.** Türkçülük, turançılıq milli məfkurənin formalaşmasında, milli şüurun aşılanmasında önəmli rol oynayan cərəyandır. İsmayıl Qaspıralı, Əli bəy Hüseynzadə, Ziya Göyalp, Əhməd bəy Ağaoğlu, Yusuf Akçura, Nihal Atsız və digərlərinin əsərləri ilə türküçülüyün mahiyyətini, eləcə də, bu ideologiyanın əsaslarını öyrənirik. Bu cərəyan özünü Azərbaycan ədəbiyyatında müxtəlif formalarda əksini tapır. Türkçülük və onun konsepsiyalarının tədqiqi, eləcə də turançılığın Azərbaycan ədəbiyyatında araşdırılması ədəbiyyatşünaslığımız üçün önəmlidir. Bir çox tədqiqatçılar türkçülüyü müxtəlif aspektlərdə araşdırmışdır. Müasir Azərbaycan ədəbiyyatı daima yeniləndiyi üçün bu sahədə araşdırılmaların aparılması aktuallıq kəsb edir. Bu da Müasir Azərbaycan poeziyasında türkçülüyün araşdırılmasını zəruri edir. Azərbaycan ədəbiyyatında türkçülüyün əlamətlərinə XIX əsrdən başlayaraq, M.F.Axundovun, A.Bakıxanovun əsərlərində rast gəlirik. XX əsrdən başlayaraq, türkçülük bir sıra əsərlərin qayəsinə çevrildi. H.Cavid, Ə.Cavad, Ə.Hüseynzadə, B.Vahabzadə, N.Xəzri, X.Ulutürk kimi yazıçı və şairlər yazılarında türkçülüyü, turançılığı təbliğ etmişlər. Müasir poeziyada Fikrət Sadıq, Vaqif Bayatlı Odər, Rüstəm Behrudi kimi şairlərin poeziyasının əsasını turançılıq təşkil edir. Rüstəm Behrudi poeziyasında türkçülük ideyaları üstünlük təşkil edir. Onun yaradıcılığının tədqiqi zamanı türkçülük və onunla bağlı olan motivlərin araşdırılması məsələni aktuallaşdırır.

**Tədqiqatın obyekti.** Rüstəm Behrudi yaradıcılığı, xüsusilə, türkçülüyə həsr olunmuş poeziyası dissertasiya işinin başlıca obyektini təşkil edir. Araşdırmada türkçülük Rüstəm Behrudi şeirləri əsasında tədqiqata cəlb edilmişdir.

**Tədqiqatın predmeti.** Azərbaycan ədəbiyyatında, xüsusilə Rüstəm Behrudi yaradıcılığında türkçülüyü əks etdirən nümunələr üzərində tədqiqatın aparılması həlledici istiqamət kimi götürülmüşdür.

**Tədqiqatın məqsədi.** Türkçülüyün tarixi köklərini araşdırmaq, Azərbaycan ədəbiyyatında turançılığın təbliğinə həsr olunmuş nümunələri müəyyənləşdirmək,

Rüstəm Behrudi yaradıcılığında türkçülüklə bağlı olan məqamları müəyyənləşdirmək.

**Tədqiqatın vəzifələri.** Tədqiqatın vəzifələri kimi müəyyənləşdirdik:

– Türküçülüyün konsepsiyalarını araşdırmaq;

– Türkçülük –Turançılıq ideologiyasının, onun cərəyan kimi yaranma tarixinə nəzər salmaq;

– Azərbaycan ədəbiyyatında türküçülüyün yaranma və inkişafı;

– Rüstəm Behrudi yaradıcılığında türküçülük, turançılıq, şamanizm, tanrıçılıq anlayışlarının və onlarla bağlı motivlərin təhlilini aparmaq;

– Rüstəm Behrudi poeziyasında tarixilik və müasirliyin vəhdətini təhlil etmək.

**Tədqiqatın metodologiyası.** Araşdırmada təsviri, müqayisəli metodlardan istifadə edilmişdir. Dissertasiyanın hazırlanmasında müxtəlif araşdırmalara nəzər salınmış, aparılan təhlillər müxtəlif əsərlərə nəzəri cəhətdən əsaslandırılmışdır.

**Tədqiqatın mənbələri.** Türkçülüklə bağlı əsərlər, xüsusilə Rüstəm Behrudi yaradıcılığı tədqiqatın əsas mənbəyini təşkil edir. Mənbə olaraq, Yusuf Akçuraoğlunun "Türkçülüyün tarixi", Ziya Göyalpın "Türkçülüyün əsasları", "Qızıl Alma" monoqrafiyaları, Nihal Atsızın "Türkçülük nədir?" məqaləsi, Əli bəy Hüseynzadənin və başqalarının əsərləri istifadə edilmişdir. Rüstəm Behrudi yaradıcılığına nəzər saldıqda isə, həm onun şeirlərinə, həm də poeziyasını araşdıranların –İsa Həbibbəyli, Xanım Sultanova kimi tədqiqatçıların araşdırmalarına nəzər salınmışdır.

**Tədqiqatın yeniliyi:** Rüstəm Behrudi şeirlərinin folklor nümunələri ilə müqayisəli şəkildə təhlil edilməsi, onun poeziyasının alt qatlarının araşdırılması tədqiqat işinin elmi yeniliyidir.

**Tədqiqatın elmi-nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiyanın elmi nəticələrindən kurs və buraxılış işlərinin, dissertasiyaların, referatların yazılmasında istifadə oluna bilər.

**İşin aprobasiyası.** Dissertasiya işi Xəzər Universitetinin "Dillər və ədəbiyyatlar" departamentində hazırlanmışdır. Dissertasiya işi ilə əlaqəli məqalələr dərc olunmuşdur. Bakı Dövlət Universitetinin Filologiya fakültəsinin təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 97-ci ildönümünə həsr olunmuş "Heydər Əliyev və Azərbaycan filologiyası" mövzusunda keçirilən Respublika virtual elmi konfransında "Rüstəm Behrudi poeziyasında milli motivlər", "XX əsr Azərbaycan ədəbiyyatında türkçülük" adlı məruzələrlə çıxış edilmişdir.

**Dissertasiya işinin quruluşu.** Dissertasiya işinin ümumi xarakteristikası iki fəsil, nəticə və istifadə edilmiş ədəbiyyatdan ibarətdir.

## İŞİN MƏZMUNU

“Rüstəm Behrudi poeziyasında türkçülük” adlı tədqiqat işi giriş, iki fəsil, nəticə və ədəbiyyat siyahısından ibarətdir.

Birinci fəsil “Türkçülük hərəkatının təşəkkülü və inkişafı” adlanır. Bu fəsil iki yarımfəsildən ibarətdir: “Türkçülük ideologiyası və onun tarixi kökləri” və “Azərbaycan ədəbiyyatında türkçülük”. Birinci yarımfəsildə türkçülüyün nəzəri cəhətləri, tarixi kökləri araşdırılır. İkinci yarımfəsildə isə Azərbaycan ədəbiyyatında türküçülüyün yaranma və inkişaf tarixi öyrənilir. Mövzusu türküçülük olan əsərlərə nəzər salınır.

İkinci fəsil “Rüstəm Behrudi poeziyasında dil, vətən, millət ideyasının poetik dərki” adlanır. Bu fəsil də iki yerə bölünür. “R.Behrudi şeirlərində türkçülük ideyalarının təcəssümü” adlı birinci yarımfəsildə şamanizm, tanrıçılıq mövzuları təhlil edilir. Təhlil zamanı Rüstəm Behrudi yaradıcılığında türkçülüklə bağlı kultlar araşdırılır. “R.Behrudi poeziyasında tarix və müasirlik” adlı ikinci yarımfəsildə isə tarixlə müasirliyin vəhdətində qələmə alınan dərviş, sufilik təhlil edilir. Türkçü şairin poeziyası üçün səciyyəvi olan milli və ənənəvi motivlər araşdırılır. R.Behrudi şeirlərindəki bədii təsvir və ifadə vasitələri də tədqiq edilmişdir.

Dissertasiyanın “Nəticə” hissəsində tədqiqat işində gəlinən qənaətlər ümumiləşdirilmişdir.

Elmi, publisistik, bədii mənbələr “İstifadə edilmiş ədəbiyyat” siyahısında öz əksini tapır.

# I FƏSİL. TÜRKÇÜLÜK HƏRƏKATININ TƏŞƏKKÜLÜ VƏ İNKİŞAFI

## 1.1. Türkçülük ideologiyası və onun tarixi kökləri

Millətlərin tarix boyunca əldən vermədikləri bir sıra dəyərləri olur. Bu dəyərlər tarixin bütün mərhələlərində, cəmiyyətin bütün qatlarında şövqverici və birləşdirici qüvvə rolunu oynayır. "Türkçülük" də bütün türk xalqlarının ortaq dəyərlərindən biridir.

Türkçülük məqsəd, amal, ideologiya olub türk xalqlarının milli mənafeyini özündə ehtiva edir. Türkçülük millət, dil, din, əxlaq, estetika baxımından ortaq olan fərdləri dünyanın harasında yaşamasından asılı olmayaraq, türklərini özündə birləşdirir. Bu ideologiya ilk növbədə bütün türklərin bir millət olması ideyasını irəli sürür. Türk insanını, soyunu, onun dilini, ənənələrini sevən, bunu müqəddəs əqidəyə çevirən, hər cür mübarizəyə hazır olan, müqavimətə sinə gələn şəxs türkçü adlanır.

Elmi, publisistik və bədii ədəbiyyatlarda "türkçülük" anlayışı ilə bağlı dəqiq, vahid bir qayda yoxdur. Bu anlayış ilə yanaşı, "turançılıq" termini ilə də qarşılaşırıq. Hər kəs bu anlayışları bir cür izah etmiş, müxtəlif qaydalar ortaya çıxmışdır. Türk dilli xalqların ədəbiyyatlarında, eləcə də Azərbaycanda da türkçülüyün mahiyyəti ilə bağlı dolaşıq fikirlər ortaya çıxmış, müxtəlif terminlər, qarışıq qaydalar, izahlar yazılmışdır.

Bir sıra obyektiv və subyektiv səbəblərdən tükçülük hərəkatını zərərli hesab edənlər də olmuşdur. Onlar türkçülük ideologiyasını zərərli hesab etmiş, pantürkizm şəklində fikirlər irəli sürmüşlər. Rusiyada, İranda, Avropada və digər dünya ölkələrində türk düşmənləri tərəfindən yazılan kitablarda türkçülüyün əleyhinə fikirlər yer almış, yazılar yazılmış, qondarma tədqiqatlar aparılmış, ittihamlar irəli sürülmüşdür. Bütün bunlara milli dəyərlərə düşmən mövqedən yanaşmanın nəticəsi kimi baxmaq lazımdır. Bir mənalı şəkildə türkçülüyü irqçilik hesab etmək olmaz. Çünki bu ideologiya digər millətlərə qarşı düşmənçilik mövqeyi sərgiləmir.

"Türkçülüy"ün məramı türk millətini ucaltmaq, birliyini qorumaq, onun dilini, tarixini, mədəniyyətini qoruyub sahiblənməkdir.

Müxtəlif türkçülər tərəfindən türk birliyi ideyası turançılıq, türk birliyi, türkçülük şəklində gah sinonim, gah da fərqli mənalarda işlədilmişdir. Türkçülər tərəfindən bu anlayışlar hər zaman müsbət anlamda işlədilmişdir.

İsmayıl Qaspıralı, Əli bəy Hüseynzadə, Yusuf Akçura, Ziya Göyalp mədəni türk birliyinin yaradıcıları olaraq bu anlamın da formalaşmasında önəmli rol oynamışdır. Əli bəy Hüseynzadənin türk birliyi adı altında türk xalqlarını bir yerə cəmləməkdə siyasi məqsədi yox idi. O, türk xalqlarının mənəvi, mədəni cəhətdən birləşməsini istəyirdi. Hər bir türk xalqlarının nümayəndələrinin də bu amal ilə birləşməsini arzulayır, bu diləyini məqsədinə, amalına çevirmişdir. Ə.Hüseynzadə istəyirdi ki, türklər vahid kökə, nəslə malik olduğunu unutmasın. Bu doğmalıqla bütün türk xalqları birləşsin, bir-birilərinə sevgi, hörmət ilə yanaşsın. "Məktube-məxsus" məqaləsində bu fikirləri çatdırmaq istəyirdi.

Yusuf Akçura da bu ideologiyanın dəstəkçisi idi. Bu ideyaların cəmləşdiyi "Üç tərzi siyasət" məqaləsi ilk dəfə "Türk" qəzetində dərc edilmişdir. O, türk birliyi deyərkən faydalarını xalqa çatdırmağa çalışırdı: *"Türk birliyi siyasətindəki faydalara gəlincə... əsil böyük fayda... türklərin birləşməsinə və beləcə digər böyük billətlər arasında varlığını mühafizə edəcək böyük bir siyasi milliyyət təşkil etmələrinə xidmət edəcəkdir"* (56,33) .

Əhməd bəy Ağaoğlu da bu ideologiyanın dəstəkçilərindən idi. O, bu birlikdən danışarkən deyirdi: *"Türklər, yakutlar və çuvaşlar, mancular, yapon və korelilər həpsi Turan, digər bir deyimlə, Altay irqinə mənsubdurlar"* (61,49). Ağaoğlunun bu fikirləri Ə.Hüseynzadənin "Turan" şeiri ilə səsləşir.

"Türkçülük", "turançılıq" anlayışları ilə bərabər "panturanizm", "pantürkizm" sözləri də işlədilir.

Bu sözləri, əsasən, xarici müəlliflər, türk düşmənləri işlətsə də, bəzən türkçülər də dərinliyinə varmadan bu terminlərdən istifadə etmişlər. 1931-ci ildə

M.Rəsulzadənin Parisdə çap olunduğu "Panturanizm haqqında" məqaləsi də məhz dediyimiz məsələ ilə bağlıdır.

Bəzi tədqiqatçılar türklərdə milli düşüncənin, milli mənliyin mövcudluğunu qədim tarixlə bağlayırlar. Başlanğıcı hunlarla olan 2500 illik türk tarixində dövlət mədəniyyəti, dəyərlər mövcud olmuşdur. Hətta türk milliyyətçiliyini dövlətçilikdən öncəki mədəniyyətə də bağlayanlar var. Onlar iddia edirlər ki, milliyyətçilik qəbilə, tayfa dövrlərindən də olmuşdur.

Göytürk abidələrində türklük, milliyyətçilik şüuru ehtiva olunur. Qədim kitabələrdən məlumdur ki, Bilgə Tonyukuk türk təfəkkürünü qüvvətləndirməyə, türk birliyi ideasını genişləndirməyə çalışmışdır. Bu abidələrdə (Orxon-Yenisey, Gök(y)türk, Tonyukuk, Gültəkin, Bilgə kağan) abidələrində türk adı tez-tez çəkilir. Xaqanlar bu ad ilə qurur duyurlar. Bir çox əsərlərdə –Rəşidəddinin "Oğuznamə", "Cəmayül təvarix", Əbülqazi Bahadır xanın "Şəcəreyi-türki", Əlişir Nəvainin "Mühakümətül-lüğteyn", Mahmud Kaşğarinin "Divani-lüğətit türk" kimi əsərlərdə türk qövmü yüksək fikirlərlə yad edilir.

Türkçülük türk olduğunu bilmə, bu yolda irəliləmə, öz mənsub olduğu mənsəbi gücləndirmə yolunda çalışmaq mənasında da işlənir. Bu mənada türkçülük türklüyün özü qədər qədimdir.

Mədəni və siyasi türkçülük hərəkatı öz inkişafı baxımından müxtəlif mərhələlərdən keçmişdir. Ümumiyyətlə, türkçülük siyasətdən daha çox mədəniyyət, təhsil, din, ədəbiyyat, tarix sahələrində güclü olmuşdur. Mədəni türkçülükdə bir sıra məsələlər nəzərdə tutulur:

– Türk millətinin bütöv olmasını, soy-kökünü dərk etməsini;
– Milli şüur və milli vicdanın oyanmasını;
– Türk milləti, türk dili adlarının dövlət səviyyəsində qəbulunu;
– Türk tarixinin, mədəniyyətinin öyrənilməsini;
– Ümumtürk ədəbi dilinin yaranmasını;

– Türk millətinin vahid əlifbasının qəbulunu;

– Türk xalqlarının arasında sıx mədəni əlaqələrin yaranmasını;

– Türkçənin sadələşdirilməsi, təmizlənməsi, inkişafı (6,5-6) .

Ziya Göyalp bu ideologiyanın elmi nəzəriyyəsini işləyərkən mədəni türkçülüyü siyasi partiya deyil, fəlsəfi, estetik məktəb hesab edirdi: *"Bu səbəbdəndir ki, türkçülük indiyə qədər bir partiya şəklində siyasi mübarizə meydanına atılmadı"* (29, 137). Türkçü alim hətta bunun mümkünsüzlüyünü də qeyd edir, əminliklə söyləyir ki, siyasi partiyaya çevrilməyəcək.

Bu cərəyanının öncüllərindən hesab olunan tatar yazar və siyasətçi Yusuf Akçura isə bu ideologiyaya belə tərif verirdi: *"Türklər dediyimiz zaman etnoqrafiya, filologiya və tarixlə ilgisi olanların bəzən "türk-tatar", "türk, tatar, moğol" deyən andıqları bir irqdən gəlmə, adətləri, dilləri bir-birinə çox yaxın, tarixi həyatları bir-birinə qarışmış olan qövm və qəbilələrin tamamını nəzərdə tuturuq. Bu baxımdan iranlı və avropalı bəzi yazarların və onlara uyaraq bəzi Osmanlı yazarlarının tatar dedikləri kazanlılar, azərbaycanlılar... ilaxır ilə bərabər, qırğızlar, yakutlar da türklər ifadəsinin içində deməkdir" (5, 11).*

Hüseyn Nihal Atsız hələ 1943-cü ildə yazırdı ki, türkçülük beş qaynaqdan irəli gəlir:

1. Kökü çox qədimlərə söykənən və türk ulusunun şüuraltısında min illərdən bəri yaşayan millətçilik;
2. Türklərin 450 ildən bəri çəkdikləri çətinliklər;
3. Azərbaycanın bölünməsi;
4. Fars və rus şovinizmi;
5. Yurdumuzun türksüzləşdirilməsi istəkləri (63).

Türkçülüyü qorumaq üçün türk xalqları bir sıra şərtlərə əməl etməlidir:

1. Türk xalqları birlik nümayiş etdirməlidir;
2. Türk xalqları azad olmalı və onun siyasi, iqtisadi və digər məsələlərinə heç bir müdaxilə olmamalıdır;

3. Türk xalqları iqtisadi baxımdan çox güclü olmalı, rifah içində yaşamalıdır;

4. Türk adət-ənənələri, eyni zamanda dili, inancı, mədəniyyəti, həyata baxışı, dünyagörüşü mühafizə edilməlidir.

Türkçülərin işlətdiyi "Turan", "Turançılıq" ifadələrinə də rast gəlirik. "Turan" sözünün mənası "bütün türklər" deməkdir. "Türk" sözünün qısaldılması olaraq, "tur" hissəciyi "bütün türklər" anlamını ehtiva etmişdir. Bu sözlə paralel olaraq bəzi ədəbiyyatlarda "Türkan" ifadəsinə də rast gəlirik.

Bütün türklərin birləşdirilməsi məfkurəsini irəli sürən "Turançılıq" bütün türklərin birləşdirilməsinin tərəfdarı idi. Bu ideologiya türk tarixinin qədim dövrlərinə qədər gedib çıxsa da, termin olaraq XX əsrin əvvəllərində meydana çıxmışdır. Ziya Göyalpın "Gənc qələmlər" dərgisində çap etdirdiyi bir şeirdə *"Vatan ne Türkiyedir Türklere, ne Türkistan, Vatan büyük ve müebbet bir ülkedir: Turan"* (58,21) bu sözə rast gəlirik.

Türkçülük –millətçilik, millətsevərlik, türk millətini yüksəltmək, türk millətinə bağlılıq deməkdir. Milliyyət cərəyanının böyük Fransa inqilabının təsiri altında – insan haqları bəyannaməsi və milli hakimiyyət prinsipi ilə canlandığı elmdə artıq qətiyyətlə qəbul edilmişdir. XX yüzilliyi çox zaman "Milliyyət əsri" (M.Rəsulzadə, A.Səhhət, Əhməd Fərid Tək) də adlandırırlar. Millətlər öz varlığını ancaq böyük fəlakətlər zamanı hiss edirlər. Türkçülük də türk millətinin qorunması üçün bir ideologiyadır. Türkçülüyün mahiyyətinin düzgün dərki üçün millət anlayışı haqqında irəli sürülən fikirlərə nəzər yetirək:

1. Ərazi eyniliyinə görə millətlərin bölgüsünü aparan tədqiqatçılara görə, millət eyni ölkədə yaşayan əhali toplumudur. Halbuki bir ərazidə müxtəlif millətlər yaşaya bilər.

2. Millət irq anlamındadır: bu fikri irqi vacib faktor kimi götürənlər dəstəkləyir. Həmin şəxslər irq anlayışını önəmli hesab edirlər. Əslində, "İrq" termini zoologiyaya aid olub, müxtəlif anatomik keyfiyyətlərə görə heyvanların qruplaşmasını göstərir. Hətta "ağ irq", "qara irq", "sarı irq", "qırmızı irq" kimi

anlayışlara da rast gəlirik. Antropologiyada baş quruluşlarına, saçlarına, gözlərinə görə də irqlərə bölürlər ki, bu da çox zaman öz təsdiqini tapmır.

3. "Qövm"ü "millət" sözü ilə qarışdıranlar da vardır. Əslində, qövm eyni ata-anadan olub əcnəbilər ilə qarışmayan, eyni qandan olan topluluqdur. Ümumiyyətlə, heç bir qarışığı olmayan toplum tapmaq çətindir.

4. "Millət bir adamın özünü aid etdiyi toplumdur" –fikrini isə fərdiyyətçilər irəli sürürdü.

Bunlardan əlavə, "Millət Osmançılara görə, Osmanlı ərazisində yaşayanlar, İslamçılara görə isə, bütün müsəlmanlardır" kimi absurd fikirlər də səslənmişdir.

Z.Göyalp hesab edirdi ki, millət siyasətə, irqə, qövmə, iradəyə və başqa amillərlə bağlı deyildir: *"Millət dil, din, əxlaq və bütün gözəl sənətlər-estetika baxımından ortaq olan, yəni eyni tərbiyəni görmüş fərdlərdən ibarət bir zümrədir. Türk kəndlisi ona "dili dilimə uyğun, dini dinimə uyğun"-deyərək tərif verər"* (29, 138).

Türkçülüyün elmi-nəzəri ədəbiyyatlarda bir neçə şərhinə rast gəlirik:

1. Türkçülüyün etnik milli hərəkat kimi özünütəsdiq etməsi kimi görürlər.

2. Türkçülüyün maarifçilik ideyalarına xidmət göstərərək türk mədəniyyətini, adət-ənənəsini yaydığını yazırlar.

3. Türkçülüyün sosial-siyasi, azadlıq hərəkatı nəticəsində "Turan" yaratmaq ideyası kimi şərh edirlər. Bu fikir daha çox ideolojidir və nisbətən, yeni yaranmışdır. Xüsusi olaraq qeyd edək ki, Turançılıq türkçülüyün son hədəfi, başqa sözlə, son mərhələsidir.

Sadaladığımız bu fikirlər "dildə birlik, fikirdə birlik, əməldə birlik" kimi "üç tərz siyasət" konsepsiyasında cəmləşir və "Tükçülük, islamçılıq və demokratiya" olaraq üzə çıxır.

Azərbaycanda Məmməd Əmin Rəsulzadə, Türkiyədə Mustafa Kamal Atatürk, Krımda Seyitəhmət Krımər türkçülüyü dövlət məfkurəsi, amalı olaraq irəli sürürdülər. Türklərin vahid dövlət altında birləşdirilməsi ideyası yalnız Balkan

dönəmində aktual olmuş, Ənvər paşanın adı ilə bağlı olmuşdur. Türkçülüyün dövlət məfkurəsini daha geniş miqyasda – bütün türk xalqlarının öz milli dövlətlərini yaratması və vahid bir türk dövlətində birləşməsi ideyasını həyata keçirmək istəyən Ənvər paşanın ideyaları isə zamanla uğursuzluğa düçar olmuşdur.

Bir sözlə, türkçülük hərəkatı öz tarixi boyunca əsasən mədəni səciyyə daşımış, ancaq Balkan hərbi dönəmində onun siyasi proqramı siyasi Turançılıq mahiyyəti almış, Ənvər paşanın rəhbərliyi və Ziya bəyin göstərişləri ilə bütün türklərin birləşdirilməsi qayəsi irəli sürülmüşdür. Lakin bu dönəm olduqca uğursuz və qısa ömürlü olmuşdur. Siyasi türkçülük ayrı-ayrı türk xalqlarının milli istiqlallarına qovuşmasını, milli dövlət qurmasını nəzərdə tutmuşdur.

Z.Göyalp türkçülüyü qarşısına qoyduğu məqsədə görə, 3 mərhələyə bölür:

1. Türkiyəçilik;
2. Oğuzçuluq;
3. Turançılıq (29, 19)

İlk mərhələdə Z.Göyalp ayrı-ayrı türk xalqlarının milli dövlətlərini qurmalarını, ikinci mərhələdə oğuzların, üçüncü –son mərhələdə isə Turanlıların, bütün türkcə danışan millətlərin mənəvi-mədəni birliyi nəzərdə tuturdu. O inanırdı ki, oğuzların birləşməsi qıza zaman kəsiyində gerçəkləşəcək. Lakin bu prosesdə bəzi xalqlar mədəniyyət fərqliliyinə görə bu prosesdə iştirak etsə də, öz adları qalacaq. Bunların sırasına tatarları, qırğızları, özbəkləri aid edir. Z.Göyalpa görə birləşən topluluqlara "Turan" adı verilsə, daha uyğun olar: *"Türkçülərin uzaq ülküsü Turan adı altında birləşən oğuzları, tatarları, qırğızları, özbəkləri, yakutları dildə, ədəbiyyatda və kültürdə-harsda birləşdirməkdir"* (29, 41).

Göründüyü kimi, Ziya Göyalp, əsasən, dil faktoruna önəm vermiş, "Turanlılar türkcə danışan millətlərdir" qənaətinə gəlmişdir.

Türk dilləri, yaxud Altay dilləri ailəsi bu dildə danışan əhalinin yerləşdiyi əraziyə uyğun olaraq, dörd əsas qrupa ayrılır:

Quzeybatı dil qrupu: Bu qrupa aid türklər keçmiş sovetlər birliyinin sərhədləri arasında məskunlaşmışlar. Volqa və Ural tatarları, qazaxlar, qırğızlar, başqırdlar, qaqauzlar, qaraçaylar, balkarlar və bu qrupa aiddir. Güney doğu qrupu: Bu qrupa özbəklər, altaylar, yakutlar və tuvaslar daxildir. Güneybatı qrupu: Bu qrupa Xəzər sahillərində yaşayan azərbaycanlılar və türkmənlər, Osmanlı türkləri, Əfqanıstandakı Kərkük türkmənləri, İran türkləri (qaşqaylar və s.) daxildir. Bu qrup Oğuz qrupu da adlanır. Buna səbəb isə həmin xalqların Oğuz boyundan olmasından irəli gəlir. Bu qrup türk xalqlar içində siyasi cəhətdən ən önəmli və tarixi ən aydın bilinən qrup hesab edilir (62,11). Moğol dillərinin, mancu, tunquz dillərinin, koreya və yapon dillərinin türkdilləri ilə yaxınlığı, hətta eyni dil qrupuna mənsubluğu elmdə bugün də mübahisə doğuran,bəzən təsdiqlənən bir məsələdir (60, 18).

Türkçülüyün inkişafında Atatürkün rolu böyük olduğu üçün adı bu ideologiya ilə bərabər hallanır. adlanan mərhələ Türkiyə Cumhuriyyətinin yaradıcısı Mustafa Kamal Atatürkün adı ilə bağlıdır: “*Mənim ətimin və sümüyümün atası Əli Rza əfəndidirsə, duyğularımın atası Namiq Kamal, düşüncələrimin atası Ziya Göyalpdır”*, (60, 17) –deyən Mustafa Kamal Atatürkün amalı da, məqsədi də dəyişməz idi. Bu səbəbdən də, türk millətinin xilas yolunu türkçülükdə görən M.K.Atatürk Osmanlı dövlətinin yerində qurduğu qüdrətli, demokratik Türkiyə Cumhuriyyətinin idarəetməsində bu ideologiyanı əsas götürmüş, dövlət quruculuğunda tətbiq etmişdir. Həm türk dilinin təmizliyi, həm ərazi bütövlüyü, həm adət-ənənələrinin yaşatması uğrunda mübarizə aparan Mustafa Kamal Atatürk qurduğu cumhuriyyəti Türkiyə Cumhuriyyəti, Məclisi Türkiyə Böyük Millət Məclisi adlandırmış, türk dilini rəsmi dövlət dili elan edərək Türk Tarix Qurumu, Türk Dil Qurumu kimi təsisatlar yaratmışdır. Bununla belə, o, hər zaman türkçü olması ilə fəxr etmişdir. Lakin bu türkçülük geniş sahədə deyil, yalnız Türkiyə ilə məhdudlaşmışdır. Hansı ki, bu cəhəti biz müsabət qiymətləndirə bilərik.

Mustafa Kamal Atatürk Lozann müqaviləsindən sonra söylənmiş nitqində onu və Türkiyə dövlətini pantürkizmdə, türkləri siyasi cəhətdən birləşdirmək cəhdində

ittiham edənlərə cavab verərək demişdir: *"Hətta bütün dünyanın türklərini əhatə etməli olan bir dövlətin yaradılması ideyası da boş xülyadır. Tarix bizə panislamizm və pantürkizm sistemlərinin müvəffəqiyyətlə tətbiq edilməsinə dair bircə fakt belə vermir.Biz hər cür istilaçılıq cəhdlərindən uzağıq"* (45,113).

Mustafa Kamal Atatürk ömrünün sonuna qədər ideyalarına sadiq qalmışdır. Məmməd Əmin Rəsulzadə haqlı olaraq, Atatürkçülükdən danışarkən *"hal-hazırda müəyyən dövrtürk xalqlarının ictimai-siyasi həyatında rol oynamış, romantik pantranizmin bütün xülyaları ilə əlaqəsini kəsmiş realist türkçülüklə qarşılaşırıq"* – demişdi (45, 113).

Türkçülüyün yarandığı ərazilərlə də bağlı elmi-nəzəri ədəbiyyatlar birmənalı fikirlər səslənmir. Bu mövzuda da tədqiqatçılar üç qismə bölünür:

1. Türkçülüyün ilk elmi-nəzəri qaynaqları Avropada yaranıb.
2. Türkçülüyün ilk elmi-nəzəri qaynaqları Rusiyada yaranıb.
3. Türkçülüyün ilk elmi-nəzəri qaynaqları Türkiyədə yaranıb.

Hər bir fikri təsdiq edənlər də bunları müəyyən mövcud sistemə əsaslanaraq yazırlar. Məsələn, türkçülüyün Rusiyada yaranma fikrini yazanlar bunu onunla əsaslandırırlar ki, Turanı yalnız Rusiyanın devrilməsindın sonra yaratmaq olar. Zənnimizcə, bu fikirlər türkçülüyün Rusiya ərazisində yaranması fikrini təsdiqləməyə əsas vermir. Turançılıq, türkçülük kimi ideologiyalar yalnız türk millətlərinin daxilində yarana bilərdi. Həmin ideoloqların müxtəlif təqiblərə məruz qalmasından sonra Avropaya üz tutaraq orada öz amalları uğrunda işlər görməsi türkçülüyün Avropada yaranması fikrinə əsas vermir. Eləcə də, Rusiyanın ağalıq etdiyi türk dövlətləri daxilində turançılıq, türkçülük ideyalarını irəli sürənlər Rusiya vətəndaşı və ya həmin insanların yaşadıqları türk dövlətlərini Rusiya ərazisi hesab etmək yanlışdır.

Ümumiyyətlə, türklərin toplu şəkildə yaşadıqları ərazi Osmanlı imperiyası və Rusiya ərazisi idi. Təkcə Rusiyada türk soylu xalqlardan taralar, başqırdlar, qazaxlar, qırğızlar, özbəklər, türkmənlər, yakut, altay, çuvaşlar, tuvas, Litoniya,

Kasimo və Krım tatarları, qaraçaylar, balkarlar, noqaylar, qumiqlər, qaraqalpaqlar, azərbaycanlılar yaşayırdı.

Buna görə də, türkçülük təkcə Osmanlı imperatorluğu ilə məhdudlaşmamış, Rusiya əsiri türklər arasında da geniş yayılmışdır. Müəyyən tarixi səbəblər üzündən bu xalqların hamısında türkçülük eyni səviyyədə inkişaf etməmişdi. Milli şüur bu türklər arasında ən çox Osmanlı və Azərbaycan, Krım türklərində, tatarlarda ən yüksək inkişaf səviyyəsinə çatmışdır.

Türkçülük siyasi arenada inkişaf etdikcə ədəbiyyata da yol açmışdır. Azərbaycan ədəbiyyatında da türküçülük ideologiyasını təbliğ edən bir çox əsərlər, şeirlər mövcuddur.

## 1.2. Azərbaycan ədəbiyyatında türkçülüyün təşəkkülü

Azərbaycan ədəbiyyatı qədim ənənələri, müxtəlif cərəyanları özündə birləşdirərək türk ədəbiyyatının önəmli qoluna çevrilmişdir. Azərbaycan ədəbiyyatının kökləri Nizamidən Xaqaniyə, Füzuliyə, Xətayiyə, Seyid Əzim Şirvanidən Vaqifə, Vidadidən H.Cavidə, C.Cabbarlıya qədər gəlib çıxır. Bizə bəlli olan türkdilli Azərbaycan ədəbiyyatı XIII əsrdən miras qalmışdır.

XIX əsrin ortalarından Azərbaycanda maarifçilik ideyalarının inkişafı özünüdərk ilə nəticələndi. Ona görə də Azərbaycanda türkçülük hərəkatının inkişaf etməsində maarifçiliyin rolunun böyük olduğunu deməyə əsas verir. A.Bakıxanov ilə başlayan bu hərəkata M.F.Axundov, H.Zərdabi və digərləri də qoşularaq Azərbaycan maarifçiliyinin bu prosesdə rolunu şərtləndirmişdir. Mirzə bala Məmmədzadə haqlı olaraq yazırdı: *"Mirzə Fətəli və Həsənbəy Zərdabi 50 il sonra dünyaya gəlsəydilər, istiqlal fikri də 50 il sonra meydana gələcəkdi"* (40,134).

XIX əsr Azərbaycan türklərinin milli intibah dövrü kimi qiymətləndirilir. Bu dövrdə xalqın ziyalı təbəqəsi öz milli kimliyini öyrənməyə, araşdırmağa çalışmış, eyni zamanda onu öz xalqına da aşılamışdır. Bunun nəticəsi olaraq, xalq 1918-ci

ildə azadlıq mübarizəsinə başlamış, Azərbaycanda milli dövlətin qurulması ilə nəticələnmişdir.

Azərbaycan maarifçilik hərəkatı milli şüurun təşəkkülündə əvəzsiz rol oynaması da danılmaz faktdır. Bu dövrdə A.Bakıxanov, H.Zərdabi, M.F.Axundov kimi ziyalılarımızın da önəmli rolu olmuşdur. Ziyalıların sayəsində müxtəlif elm sahələrində yeniliklər baş verməyə başlanılmışdır. Tarixin araşdırılması türklərin qədimliyini, dilçiliyin tədqiqi türk dillərinin öyrənilməsinə əsas vermişdir.

Bu dövrdə yazılmış Azərbaycan türklərinə həsr olunan tarix kitablarına nəzər salsaq, bunun şahidi olarıq. Mirzə Kazım bəy "Dərbəndnamə" kitabında Azərbaycan və Qafqaz tarixindən bəhs etsə də, bu məlumatlar müəyyən əraziləri əhatə edirdi. Bütöv Azərbaycanın tarixindən isə şair, nasir, tərcüməçi, coğrafiyaşünas, bir sözlə, ensiklopedik şəxsiyyət Abbasqulu ağa Bakıxanov yazmışdır. Əsərdə bugünkü "Güney Azərbaycan" adlandırdığımız torpaqlar da əks olunmuşdur. O hesab edirdi ki, hər ölkənin tarixi o ərazidə yaşayan xalqlar üçün lazımlıdır. "Gülüstani-İrəm"in girişində yazırdı ki, *"Çünki tarix ona öz millətinin təbiət və adətlərindəki xüsusiyyətləri bildirir, qonşu tayfaların rəftarından məlumat veərər, müxtəlif xalqlarıla saxlanan əlaqənin əsas xeyir və zərərini ona məlum edər"* (7, 10). Bu sözlərə görə, Çar hökuməti tərəfindən əsərin nəşrinə icazə verilmədi.

Əsərdə Azərbaycan ərazisində yaşamış müxtəlif tayfaların mənşəyi, dilləri, dinləri haqqında zəngin məlumat verilmiş, Azərbaycan tarixinin ən qədim dövrlərdən başlayaraq, Gülüstan müqaviləsinə qədərki dövrünün elmi mənzərəsi yaradılmışdır.

Bu əsər bir də ona görə qiymətlidir ki, türklərin tayfa birliklərinin tədqiqinə xüsusi yer verilmişdir. Kitabda etnik tərkib araşdırmasında Azərbaycan ərazisindəki türk tayfalarının təsnifi də əks olunur. Bu da türk tarixi üçün önəm daşıyır. Müəllifin təsnifatəna görə, Qubada, Şirvanda Zəngənə, Kəngərli, Xəlilli, Şirvanda Qaramanlı, Çakırlı, Çamlı, Təkəli, Qubada Ərşəli, Osallı, Qacar, Ustacallı, Quba, Şirvan və

Dərbənddə Bayat qəbiləsi, Şəkidə, Şirvanda Xələc, Qaraqoyunlu tayfaları yaşamışdır (7,25).

Abasqulu ağa Bakıxanovdan sonra türkçülüyün inkişafında Mirzə Fətəli Axundov böyük rol oynamışdır. Türkçülük hərəkatının təşəkkülündən söz açılırkən, Mirzə Fətəli Axundov *“Rusiyada yetişən iki böyük türkçüdən birincisi”* (29,47), *“böyük Azərbaycan türkçüsü”* (17,71), “milli ədiblərimizin atası”(55, 11) adlandırılmışdır.

Məlumdur ki, türkçülük bir cərəyan olaraq, XX əsrin əvvəllərindən vüsət tapmışdır. Ona görə də həm Bakıxanovun, həm də Axundovun yaradıcılıqlarında türkçülük məfkurəsini axtarmaq yanlış olardı. Hər iki ədibin yaradıcılığında milli şüurla yazılan əsərlər tapa bilmərik. Səbəbsiz deyil ki, Axundov millətdən söz açarkən, türk milləti deyil, İslam milləti ifadəsini işlədirdi. İslam milləti məfhumuna sözügedən ərazilərdə yaşayan müsəlman xalqları daxil edirdi. Buna görə də milli şüurun oyanması tarixini 20-ci əsrin əvvəllərinə bağlayan tədqiqatçı Aybəniz Əliyeva-Kəngərli haqlı olaraq yazır ki, “*Abasqulu ağa kimi Mirzə Fətəli Axundovun da əsərlərində milli şüur, millət anlayışları yox idi. Tez-tez işlətdiyi “İslam xalqı”, “İslam milləti”, “Müsəlmanlar”, “Müsəlman tayfaları” kimi ifadələr müsəlman xalqlarını əhatə edirdi və sırf ümmətçilik prinsipinə əsaslanırdı. Qətiyyətlə demək olar ki, A.Bakıxanov, Mirzə Fətəli Axundov və Zərdabi dövrü Azərbaycanda Azərbaycanda ümmətçilik dövrü kimi səciyyələndirilə bilər”( 26, 28; 50,56).*

Ədibin əsərlərinə nəzər salsaq, görərik ki, heç bir əsərində türkçülükdən söz getmir, əksinə, məktubların, tərcümeyi-halında milli mənsubiyyətini farslara bağlayır. *“Mən özüm zahirən türk olsam da, əslim farslar nəslindəndir. Ulu babam Hacı Əhməd Rəştdən gəlib Azərbaycanda vətən tapmışdır” (4, 133) və ya “Mənim atam Mirzə Məhəmmədtağı Əhməd oğlunun ulu babaları fars qəbilələrindən olmuşdur*” (4,215).

Bundan başqa, ədib ruslaşdırma siyasətinə böyük dəstək verənlərdən idi. Bunun da bir sıra səbəbləri vardır. Belə ki, Mirzə Fətəli Axundov Tiflisdə Qafqaz canişini

dəftərxanasında çalışırdı. Bu səbəbdən də ruslaşdırma siyasətinin qayda, qanunlarına, eləcə də tələblərinə tabe olub, xidmət göstərməyə bilməzdi. Bunu da qeyd etmək lazımdır ki, Mirzə Fətəli Axundovun xidmət göstərdiyi ruslaşdırma siyasəti Azərbaycan mədəniyyətinin İran təsirindən, fars buxovlarından qorumasına, uzaqlaşdırılmasına, Avropa mədəniyyətinin Azərbaycana keçməsinə, Şərq-Qərb sintezinə vüsət yaradırdı.

Göründüyü kimi, bu amillər də göstərir ki, Axundov yaradıcılığında milli şüur, türkçülük kimi anlayışlar öz əksini tapmamışdır. Lakin türkçülüyün inkişafı üçün münbit zəminin yaradılmasında ədib böyük işlər görmüşdür. Məsələn, Şərq-Qərb əlaqələrinin qurulmasında, əlifba islahatları üçün verdiyi təkliflər və bu kimi addımlar milli şüur üçün önəm daşımışdır. Əsərlərinin təmiz türkcə ilə yazması da vacib amildir. Ədibin Azərbaycan türkcəsində komediyalar yazması ədəbiyyatşünaslıq üçün ən böyük xidmətlərdən idi. Yazıçı əsərlərinin Azərbaycan dilində yazılma səbəbini hökumətlə bağlayaraq onların xeyirxah işi kimi qələmə vermişdir. Əslində isə ruslar bu proses zamanı farsca yazmağı da qadağan etmiş olurdu. Təbii ki, farscadan ruscaya keçmə türk xalqı üçün çox çətin proses olacaqdı. Ona görə də ən uyğun variant kimi öz dillərində yazmağı tələb etdilər. Bu zaman Axundovda “ tatar dilində komediyalar yazmaq fikri oyandı” (4, 57).

Axundovla başlayan qərbləşmə meyilləri digər sahələrdə də özünü göstərməyə başladı. Avropa mədəniyyətinə qapılar açan ədib türkçülük üçün də şərait yaratmışdır. Belə ki, Yusif Akçura türkçülüyün təşəkkülündən danışarkən qeyd edir: *“Fikrin Avropadan gəlmiş olmasına görə Avropa ilə ən çox təmas və münasibəti olan Avropa mədəniyyətindən ən çox feyz almaya başlayan türk qövmlərinin digərlərindən daha əvvəl bu fikirlər istisna etmələri icab edər. Bu şəraiti haiz türk qövmləri əskidən Osmanlı türkləri denilən Qərb türkləri, Krım türkləri, Şimal türklərinin İdil hövzəsində yaşayan əqvamı ilə Azərbaycan türkləridir. XIX əsrin sonlarına doğru türklərin bu dörd kömərsinin dördündə də milliyyət fikrinin təzahür edərək intişar eyləməkdə olduğunu görüyoruz “* (56, 19).

Çətin şəraitdə Mirzə Fətəli Axundovun Azərbaycan türkcəsində əsərlər yazması milli realist nəsrin yaranmasına, milli ədəbi tənqidin əsasının qoyulmasına səbəb olmuşdur. Onun dramları yüksək sənətkarlıq nümunələri olaraq bütün ədəbiyyatşünasların rəğbətini qazanmışdır. İlk teatrın yaradılması üçün qapılar açan ədibin əsərləri marağa səbəb olurdu. Bu əsərlərdə, xüsusilə dramlarında milli kolorit, adət-ənənələr öz əksini tapır, xalqın ruhunu oxşayırdı. Firidun bəy Köçərli onu səbəbsiz yerə "məişətimizin aynası" adlandıraraq (3,247) yüksək qiymətləndirirdi.

Mirzə Fətəli Axundov Şərq xalqlarının, xüsusilə azərbaycanlıların maaiflənməsini, savadlanmasını, Avropa mədəniyyətini qəbul etməsini, Qərb yoluna addım atmasını inkişafları üçün mühüm amil sayırdı. Yazıçı bütün ömrünü xalqın maariflənməsinə sərf etmişdir. O, İslamı xalqın maariflənməsinin qarşısını kəsən amil hesab edirdi. Ədibin bu fikirləri etirazlara səbəb olmuşdur. Həsənbəy Zərdabi, İsmayıl Qaspiralı, Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseynzadə kimi ziyalılar islam dini ilə dünyəvi elmlər arasında ziddiyyətin olmadığını söyləyir, bu dinin maneə kimi görülməsini absurd hesab edirdilər.

Əhməd bəy Ağaoğlu "İslam və Tərəqqi" adlı məqaləsində qeyd edirdi ki, *"İslamın maariflə düşmənçiliyi, uyğunsuzluğu haqda vulqar düşüncə mənası və əsassız olmaqla bərabər, həm də ən kiçik tənqidə belə dözmür. Həqiqi müsəlman təhsilsiz, maarifsiz təsəvvür olunmazdır. İslam və cəhalət iki bir-birinə zidd anlayışdır" (35,6).*

Əhməd bəy Ağaoğlu ilə yanaşı, Əli bəy Hüseynzadə də İslam dinini vacib hesab edirdi. O, "bizim üçün İslam xaricində nicat yoxdur" (31) fikri ilə bu dinin önəmindən bəhs edir, müsəlman türk xalqlarının nicatını Quranda görürdü.

Göründüyü kimi, M.F.Axundov gördüyü işlərlə milli şüuru oyatmış, cəmiyyəti formalaşdırmağa çalışmışdır. Bu səbəbdən də Məmməd Əmin Rəsulzadə qeyd edirdi ki, *"Rusiya imperiyasının müsəlman xalqlarının türk özünüdərki çoxdan – ilk*

*dramaturqumuz Mirzə Fətəli Axundzadənin 1850-ci illərdə sadə xalq dilində ölməz komediyalarını yazdığı vaxtdan başlamışdır"* (45, 116).

Azərbaycanda türkçülüyün inkişafında mühüm rol oynayan ədiblərimizdən də biri Həsən bəy Zərdabidir. M.Ə.Rəsulzadə Həsən bəy Zərdabini millətin formalaşmasında böyük rol oynadığını qeyd etmişdir (59,17).

Azərbaycanlıların millət olma prosesinin başlanğıcı tarixi kimi "Əkinçi"nin yaranması ilə götürsək, daha doğru olar.

Həsən bəy Zərdabi ilə təşəkkül tapmış milli oyanış 1905-ci ilə qədər Azərbaycanda baş vermiş proseslərə birbaşa təsir etmişdir. Ədib ilk xeyriyyə cəmiyyətini yaratmış, milli teatrın əsasını qoymuşdur. 1870-ci illərdən 1905-ci ilə qədər olan dövrə nəzər salsaq, aydın olar ki, Həsən bəy Zərdabi bütün sahələrə öz töhfələrini vermişdir.

Ədib milli şüurun formalaşması üçün aşağıdakı işlərə imza atmışdır:

1. Mirzə Fətəli Axundovla başlanan dramaturgiya H.Zərdabiyə teatr yaratmaqda vasitəçi oldu. Böyük ədiblərin sayəsində teatr ərsəyə gəlmişdir.

2. Təhsilin milliləşdirilməsi sahəsində atdığı addımlarla da H.Zərdabi öz adını qızıl hərflərlə yazmışdır.

3. "Əkinçi" qəzetinin yaradılması ilə ana dilli mətbuatın başlanğıcını qoyan H.Zərdabi digər maarifçilər üçün cığır açmışdır.

"Əkinçi" qəzeti bir çox sahələrə jurnalistika, ədəbiyyatşünaslıq, əkinçilik, maldarlıq və bu kimi ixtisaslara yeniliklər gətirmişdir. Bu yeniliklər keçmiş Rusiya ərazisində yaşayan türk xalqlarının mədəni inkişafına təsir göstərmişdir. İlk dramın, anadilli realist nəsrin yazılmasından, ədəbi tənqidin yaradılmasından sonra bu qəzetin də çap olunması maarifçiliyin inkişafına təkan verdi. Qəzet ətrafına böyük ziyalılarımız –Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov, Əsgər ağa Gorani, Əlizadə Şirvani, Əhsənül-Qəvaid və başlqaları toplaşdı. Türkiyədə isə bu qəzetin davamçısı olaraq "Tərcüman" İsmayıl Qaspiralının baş redaktorluğu ilə dərc edilməyə başlanıldı.

Bununla belə, Həsən bəy Zərdabi xalqı maarifləndirmək yolunda etdiyi işlərdə həm dövlətin, həm də savadsız, cahil insanların  hücumlarına məruz qalmışdır. Lakin bu hücumlar onu maarifçilik yolundan çəkindirməmişdir.

Bu proseslər sayəsində  XIX əsrin sonunda ümmətçilikdən millətçiliyə keçid baş vermişdir. Azərbaycanda ilk dəfə olaraq bu dövrdə millət və din məfhumlarının arasındakı fərq özünü göstərmişdir. Nəticədə Qafqazda yaşayan müsəlmanların etnik mənsubiyyətinin müəyyənləşdirilməsi yolunda ilk addımlar atılmışdır. Cəmiyyətin bütün sahələrini bürüyən maarifçilik hərəkatı millətin və mili şüurun formalaşmasını şərtləndirmişdir.

Göründüyü kimi, Həsən bəy Zərdabi etdiyi işlərlə yeni bir mərhələ formalaşdırmışdır. Bu mərhələ  Əli bəy Hüseynzadənin milli ideologiyanın yaratması ilə sonlandırılmışdır.

"Əkinçi" qəzeti İsmayıl Qaspıralıya təsir göstərdi. İsmayıl Qaspıralının da yaradıcılığı Azərbaycan ədəbiyyatına təsirsiz ötüşmədi. Ə.Hüseynzadənin, Ə.Ağaoğlunun yaradıcılıqlarında bu təsirləri görmək olar. Qaspıralı türk birliyinin vacibliyini, həmrəyliyin önəmini bildirərək "dildə, fikirdə, işdə birlik" şüarını tezisə çevirərək yaradıcılığını da bu yöndə aparmışdır. Bu önəmli amillər bu dövrü H.Zərdabi və İ.Qaspiralının adı ilə bağlamağımıza əsas verir. "Həsən bəy Zərdabi mərhələsi", "H.Zərdabi və İ.Qaspiralı" mərhələsi anlayışları da bu fikirlərdən doğmuşdur.

İsmayıl Qaspıralı dövrü türk dünyası, türk mədəniyyət tarixi üçün yeni bir mərhələdir. Həsən Bəy Zərdabinin islamlaşmaq, qərbləşmək ideyalarına İsmayıl Qaspıralı bir də türkləşşmək ideyasını da qatdı. Ədibin Həsən bəy Zərdabinin təsiri altında formalaşmasını və bunu qürur hissi ilə qeyd etməsi XIX yüzillikdə Azərbaycanda baş verən intibahın nə qədər böyük rol oynadığını, Həsən bəy Zərdabinin necə böyük şəxsiyyət olduğunu sübut edir.

İsmayıl Qaspıralının formalaşmasında  təkcə Mirzə Fətəli Axundov və Həsən bəy Zərdabinin təsiri deyil, eyni zamanda Türkiyədəki gənc osmanlıların da rolu

olmuşdur. Bununla belə, o, öz sələflərindən əsaslı şəkildə fərqlənirdi. Gənc osmanlılar –jon-türklər Türkiyəçi idilər. Həsən bəy Zərdabi və onun davamçılarının işləri, əsasən, Azərbaycanla məhdudlaşırdı. Həsən bəy Zərdabi dövrü XIX yüzillikdə Azərbaycanda milli oyanış hərəkatının zirvəsi oldu. İsmayıl Qaspıralı isə 80-ci illərin lap əvvəllərindən ilk dəfə olaraq, dünyada yaşayan türklərin vahid millət təşkil etdiyini, türk birliyinin onların nicat yolu olduğunu söyləyərək türkçülük ideyalarını məhdud çərçivədən çıxararaq qloballaşdırdı, ümumtürk hadisəsinə çevirdi. 1881-ci ildə rus dilində dərc olunan "Tavrida" qəzetindəki ilk məqaləsində də bu haqda yazırdı. İsmayıl Qaspıralı ölənə qədər bütün türklərin birləşməsi, mədəni türkçülük yolunda şərəflə çalışdı, ideologiyasına sadiq çıxdı. Onun çalışmaları qısa zamanda bütün türk dünyasını əhatə etdi və türk dünyasının hər yerində, o cümlədən Azərbaycanda İsmayıl Qaspıralını ardıcılları yaranmağa başladı.

XIX əsrin sonunda –XX əsrin əvvəllərində Azərbaycanda da İsmayıl Qaspıralı və eyni zamanda Türkiyə türkçülük hərəkatının təsirilə islam ümmətçiliyindən türk milliyyətçiliyinə keçid oldu. Bunun sayəsində milli ideologiya-türkçülük məfkurəsi formalaşdı. M.Ə.Rəsulzadənin təbirincə desək, *"Rusiyadakı türklərin, bilxassə Azərbaycanlılarınyaşayışlarında yeni bir dövr başlayırdı. Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi və İsmayıl Qaspıralının canlandırdıqaları milli kültür hərəkatı irəliləyir, bu hərəkat siyasi hüquq dalğasına girirdi"* (57, 18).

Bu dövrdə İsmayıl Qaspıralının türk birliyi, mədəni türkçülük ideologiyası Azərbaycanda Ə.Topçubaşov, Ə.Ağaoğlu, xüsusilə Əli bəy Hüseynzadə başda olmaqla "Füyuzat" cərəyanı tərəfindən davam etdirildi. Həsən bəy Zərdabi mərhələsinin sonunda artıq türklərin vahid bir millət olması, türk birliyi çağırışları Azərbaycan ziyalılarının da dilindən eşidildi. Rusiya müsəlmanlarının 1905-ci il 13 avqustda keçirilən birinci qurultayında Əlimərdan bəy Topçubaşov Qafqaz, Krım, Qazax, Türküstan, İdil-Ural, Sibir türklərinin nümayəndələrinə müraciətlə deyirdi: *"Biz, türk balaları, əslimiz bir, nəslimiz birdir. Məğribdən Məşriqə qədər bizim*

*babalarımızın mülkü idi. Babalarımız o qədər qəhrəman millət olduqlrı halda, bugün Qafqaz dağlarında, Krım bağlarında Kazan çöllərində babalarımızın mülkü olan öz vətənizimdə öz ehtiyacımızı danışmağa ixtiyarımız qalmadı"* (57, 92).

Eyni zamanda Əhməd bəy Ağaoğlu da eyni ideologiyadan çıxış edərək "Kaspi" qəzetində qeyd edirdi: *"Bütün bu toplum yalnız dini toplum olmaqla qalmayıb, eyni zamanda etnik bir varlıqdır. Çünki bütün Rusiya müsəlmanları pək az bir istisna ilə böyük türk-tatar irqinə mənsubdurlar. Bir tək ümumi dillə danışır və eyni dini inancları daşıyırlar*"(34).

*"Türkiyədən gələn türkçülük özünü bir neçə formada göstərirdi; M.Ə.Yurdaqul, T.Fikrət, N.Kamal, M.Ə.Rəcaizadə kimi şairlərin yaradıcılığında artıq türkçülük görüşləri ifadə olunmağa və getdikcə yayılmağa başlamışdır"* (22, 6). Beləliklə, türkçülüyün yeni mərhələsinə təkan verilmişdir. Azərbaycanda Həsən bəy Zərdabi mərhələsi Ə.Hüseynzadə ilə yeni mərhələyə qədəm qoydu.

Türkçülük ideologiyası Ziya Göyalpdan xeyli əvvəl Azərbaycan romantiklərinin yaradıcılığında mədəni türkçülüyün mədəni türkçülüyün prinsipləri ilə sərhədlənmiş, siyasi anlamda vüsət tapmamışdır. Ziya Göyalp etiraf edərək yazırdı ki, *"...Hüseynzadə Əli bəy Rusiyadakı milliyyətçilik cərəyanlarının təsirilə türkçü olmuşdur. Bilxassə hələ kollecdə ikən gürcü gənclərindən son dərəcə milliyyətpərvər olan bir yoldaşı ona milliyyət eşqini aşılamışdı"* (29, 31) .

"Kaspi", "Həyat, "Füyuzat" kimi qəzet və jurnallarda Ə. Hüseynzadənin irəli sürdüyü mülahizələr Azərbaycan romantiklərinin təkcə mədəni türkçülüyə önəm verdiklərini sübuta yetirir. Əli bəy Hüseynzadə tez-tez türk birliyi ilə bağlı söylənilən əsassız, absurd fikirlərə, xüsusilə, ermənilərin əsassız yazılarına cavab olaraq dəlilli yazılar yazmışdır.

H.Z.Tağıyevin maddi dəstəyi ilə Əhməd bəy Ağaoğlu ilə birgə nəşr etdirdiyi "Həyat" qəzeti türkçülük ideyalarının təbliğinə xidmət göstərmişdir. Bu səbəbdən də 1919-cu ildə İstanbulda həbs olunan Əli bəy öz fikirlərindən dönməmişdir.

Əli bəy Hüseynzadənin türkçülük ideyaları ilə yaxından tanış olmaq istəsək, onun “Türklər kimdir və kimlərdən ibarətdir?” əsərini oxumaq kifayət edir: “Türklüklə iftixar etdikləri halda, türkün kim və kimlərdən ibarət bulunduğunu bilməyən nə qədər türk mühərriklərimiz vardır!” (33,385) –deyərək türk xalqlarının mədəniyyətinə, dünyagörüşünə, adət-ənənəsinə, tarixinə, etnoqrafiyasına, ərazisinə, dilinə, dininə nəzər salmışdır. Əli bəy Hüseynzadə öz türkçülük ideyalarını yaymaqla bərabər, dünya ədəbiyyatında türklərlə bağlı olan fikirlərə də işıq tutmuşdur.

Ə.Hüseynzadə “Qərbin iki dastanında türk” adlı məqaləsində dünya ədəbiyyatında türklərə qarşı mövcud olan iki münasibətə nəzər salmışdır. Ədib türklərə münasibətdə müxtəlif qütblərdə dayanan iki müəllifin əsərlərindən söz açır. Torkvado Tassonun “Qurtarılmış Qüds”, Kamoensin “Luziada” əsərlərindən söz açan yazıçı hər ikisinin də qatı islam əleyhdarları olmasını qeyd edir. Əli bəy bu qeydlərdən sonra onların əsərlərinə nəzər yetirir. Onun fikrincə, Tasso təsəvvüfü - mistismi dərk etdiyi islamı da daha yaxşı başa düşür. Kameonsunun türklərə qarşı olan nifrətini, onları “vəhşi”, “barbar”, “qəddar”, “qatil” adlandırdığını təəssüf hissi ilə bildirən müəllif bu əsəri əsəblə oxuduğunu da gizlətmir. Kameonsunun türkləri “rum” adlandırması da ədibin gözündən yayınmır və bunu tənqid edir.

Əli bəy şeiriyyətində də turançı, türkçü idi. Onun “Sizlərsiniz ey qövmi-macar bizlərə ixvan” misrası ilə başlayan şeirində türkçülük ideyalarını görə bilərik. “Arslan ağzı” şeirində də şair öz ideologiyasını oxucularına poetik dillə çatdırmışdır. Vətənini islam torpağı, torpağını aslan yatağı adlandıran şair hətta ən qəddar müharibələrin də türkləri qorxutmadığını dilə gətirir:

Əbədiyyən yaşar türkün bayrağı!
Ölümdən qaçarmı vətən uşağı?!
Üstü də, altı da birdir torpağın!
Yer, göy, dəniz bütün Tanrı qucağı! (32, 19).

Əli bəy Hüseynzadənin açdığı cığır ilə sonra Hüseyn Cavid, Əhməd Cavad, Cəfər Cabbarlı, Abbas Səhhət, Abdulla Şaiq kimi şairlər getmişlər.

Türkçülük ideyalarının alovlu təbliğatçılarından da biri Hüseyn Cavid olmuşdur. Onun əsərlərinin qayəsində Türkçülük, Turançılıq dayanır. H.Cavid təkcə irəli sürdüyü məfkurə ilə deyil, əsərlərinin dili ilə də bir Türk idi. Böyük türk alimi Mustafa Haqqı Türkəqul ədibin dilinə nəzərən söyləmişdir: “bir körpü yaratmış və bu iki şivə arasındakı məsafəni qısaltmışdır” (19, 8).

Hüseyn Cavid milli mənsubiyyəti ilə də, türkçülüyü ilə də, türkün tarixi ilə də fəxr etmişdir. O, qürur hissi ilə yazır ki, tarix boyu türklərə boyun əymişlər. Lakin türkün mərhəməti sayəsində xilas olan düşmənlər arxadan zərbə endirmişlər:

Mərhəmət gördü...canı qurtardı
Sonra lakin bu mərhımər, bu aman,
İştə tarix! Türkə verdi ziyan (19, 53).

Hüseyn Cavid millətin bədbəxtliyinin səbəbini milli kimlikdən, soy-kökdən uzaqlaşmaqda görürdü. Şair qeyd edirdi ki, İstanbulda gənclik fransızlaşdıqca, Paris ədəbazlığı, fransız modası ölkəni bürüdükcə türk övladı uçuruma yuvarlandı:

Sərxoşluq, iffətsizlik sardı bütün gəncləri,
Zəhərləndi getdikcə məmləkətin hər yeri (20,340).

Göründüyü kimi, şair Avropanın bir çox cəhətlərini türklər üçün zərərli hesab edir, bu xüsusiyyətlərdən uzaqlaşmağı söyləyir. Şairə görə, əsl türk ədəbli, ərkanlı, davranışını bilən olmalıdır.

Əli bəy Hüseynzadə kimi H.Cavid də türkləri avropalılarda “axtarırdı”. Avropalıların bizə olan münasibətini kənardan izləyən şair əsərlərində bunu aydın göstərirdi.

“Şeyda” əsərində bir epizoda nəzər yetirək:

Almaniyalı rəssam Maks Müller Şeydaya deyir: *“Bilirsin ya, bən səni pək sevirim: çünki səndə bütün mənasilə türk nəcabəti görüyorum”*( 20,242).

Ədibin əsərlərində hadisələr Turan məmləkətində baş verir. H.Cavid türkçü, turançı olmağı ilə fəxr edirdi. Ona görə də əsərlərində də o ruhu aydın görmək olur. Səbəbsiz deyil ki, M.Ə.Rəsulzadə onun “Topal Teymur” əsərində “milliyyət hissi”nin təbliğ olunduğunu söyləyir.

Məhəmməd Hadinin də yaradıcılığının əsasını türkçülük təşkil edirdi. Bu ideyalar onun Türkiyəyə getməsindən sonra daha da intensiv xarakter alaraq yaradıcılığının qayəsinə çevrildi. Biz Hadiinin əvvəlki şeirlərində onun daha çox islamçılığı təbliğ etdiyini görürdük. Əvvəlki poeziyasında yer alan “milləti-islam” ifadəsi sonralar “türk” ilə əvəzlənmişdir. Yaradıcılığının sonrakı dövrlərində türkçülük tərənnüm olmuşdur. “Məfkureyi-aliyəmiz”, “Zəfəri-nahiyəyə doğru”, “Türkün nəğməsi”, “Əsgərlərimizə-konüllülərimizə” kimi şeirlərində şair təpədən-dırnağa türkçüdür. Şair əsgər olmağı türkçülük, islamçılıq üçün şərəfli bir iş oldğunu yazır. Əsgərlərlə torpaqların var olduğunu söyləyən şair türküçülük, islamçılıq, müstəqillik kimi anlayışları şeirlərində eyni sırada vermişdir.

Daima türk oğlu hifz etmişdir öz namusunu,
Əldəki şüysu-şücaət, dildəki iman ilə
Qorxmayınız düşmından əsla, dönsə dünya atəşə,
Hər zamanda etmişiz qovğa qövi-cahan ilə (43,6).

Abbas Səhhət yaradıcılığında da türküçülük Vətən anlayışı ilə eyni anlamda, paralel şəkildə verilmişdir. O, türkçülük təəssübkeşliyini poeziyasında da qorumuşdur:

Türklük, islamlıq iddiası ilə,
Öz dilin bilmək istəyən yoxdur.
Əcnəbi ruhunun havasilə,
Vətənin, millətin sevən yoxdur (48, 125).

Abdulla Şaiq yaradıcılığında da türkçülük önəmli rol oynayır. O, şeirlərində türk oölunu birliyə, həmrəyliyə səsləyir. Türkçülük ideologiyası ilə yazdığı şeirlər "Türk çələngi" adlı kitabında toplanmışdır. Onun "Yeni ay doğarkən" şeiri türkçülüyün təbliöinə həsr olunan yaradıcılıq nümunələrinin bədii səlnaməsi olub poetikliyi ilə diqqət cəlb edir. Əsərdə yeddi türk dövləti Ülkər ulduzu ilə bədiiləşərək rəmzləşdirilmişdir. V.Osmanlı da bu şeiri təhlil edərkən bızi məsələlərə diqqət yetirir: *"Romantik qəhrəmanın belə halda "bən istərəm yeddi ülkər qovuşsun bir-birinə", –istəyi şairin özünün yeddi Türk dövlətinin birləşməyi istəyidir. Romantik qəhrəmanın yeddi ülkərin birləşib günəş kimi işıq saçması şairin yeddi türk dövlətinin, bütünlükdə Türklərin birləşib nurlanması arzusudur"* (44, 110).

Umgülsüm Sadıqzadə, Cəfər Cabbarlı, Əhməd Cavad kimi romantiklərin də yaradıcılığında türkçülük qırmızı xətlə keçmişdir.

Əhməd Cavad başdan-ayağa türkçü idi. Onun hər bir əsərində türkçülük başdadır. Türkçülüyün himninə çevrilən "Çırpınırdı qara dəniz" şeirində şair türkün bayrağının şərəf rəmzi olduğunu yazır. Şeirin qəhrəmanı türkün bayrağına baxıb qürur keçirir, Qara dənizə bənzədərək yazır:

Çırpınırdı Qara dəniz
Baxıb Türkün bayrağına!
"Ah" deyərdim, heç ölməzdim,
Düşə bilsəm, ayağına (18,124).

Hər bir türkçünün hislərini təcəssüm etdirın bu şeirdə türkü və onun bayrağını vəfalı hesab edir. Hətta Türkün bayrağının gəldiyi an fırtınaların da durub baş əydiyini poetik misralarla ifadə edən edən şair "Salam Türkün bayrağına" deyərək onu salamlayır.

Onun "Şəhidlərə", "Ey əsgər", "Türkün bayrağına", "Dərdim" kimi şerilərində türkçülük tərənnüm olunur. "Yürü, yürü günün üzünə" şeirində şair ayrı düşmüş türkçülüyə həsrətlə baxır. Bayrağındakı ayparanı göydəki ayla eyniləşdirir, bayrağı

poetik dillə ucalara yüksəldir. Ayrı düşmüş türklərə durnalarla salam göndərərək "Yetirdimi sənə?" sualını verir:

Yürü, yürü batan günün izinə!
Gülümsəyir doğan Günəş yüzünə" (18, 127) –

deyərək, sabaha ümidlə baxır.

Azərbaycan ədəbiyyatının romantiklərindən olan Umgülsüm Sadıqzadənin yaradıcılığında da türkçülük qızıl boyalarla təsvir olunmuşdur. Onun poeziyasındakı türkçülük canlıdır, həyat doludur. "Ey türk oğlu" şeirində Cumhuriyyətin yaratdığı üç rəngli bayraq tərənnüm olunur. Şair türkün soy-kökünə işarə edərək "Şanlı ata-babanın öyüd, nəsihətini unutma!" deyərək məsləhət verir. Türk oğullarını birləşməyə səsləyərək heç bir şeydən qorxmamağı söyləyir. Birləşmək üçün ayağa qalxan Türkün həssas qəlbinə ülvi duyğuların da gələcəyinə əmin edərək yazır:

Ülvi duyğular versin
Türkün həssas qəlbinə
Hörmət, izzət aldırsın
Böyük Turan elinə(53, 58).

1980-90-cı illərdə Azərbaycançılıq eşqi, azadlıq sevdası poeziyada türkçülüyü də göyətməyə başlamışdır. Türkçülük ənənələri bu dövrdə daha da geniş vüsət almışdır. Müstəqillik ədəbiyyatının formalaşmasından söz açılarkən türkçülük ideyalarını unutmaq olmaz. Müstəqilliyin ilk illərindən başlayaraq, müstəqillik ideyalarının tərənnümü, ideal uğrunda mübarizə poeziya üçün səciyyəvi hal almaqla yanaşı, türkçülüyün inkişafı üçün də zəmin yaratmışdır.

Xəlil Rza Ulutürk bu məfkurəni öz poeziyasında diriltmişdir. Türkçülük öz poetik ifadəsini Xəlil Rza Ulutürk yaradıcılığında tapmışdır. Şairin "Azərbaycan", "Sən alçaqsan", "Boz qurda öygü" şeirlərində türkçülük milli kimliyə çevrilmişdir

Şairin "Xəlil, bir az səbr elə", "Nə yaxşı ki...", "Yaşasın od yurdu, qardaş Türkiyə" şeirlərində turançılıq ideyalarını əks etdirməklə yanaşı, Türkiyə və onun

timsalında digər türk xalqlarını dövlətimizə arxa-dayaq hesab etmişdir. “Azərbaycan - türk salamı”, “Azadlıq meydanı” kimi şeirlərində Turan birliyini əks etdirir.

“Qalx ayağa, Azərbaycan” şeirində X.Ulutürk Məmməd Əmin Rəsulzadə ideyalarını əks etdirərək şeirdə türk ərazilərinin xəritəsini poetik dillə çəkir. Üç konsepsiya ideyasına söykənərək üzü nurlu müsəlman türklərin hər kəs tərəfindən sevildiyini əminliklə söyləyir:

Sevir türkü altı qitə
Sevməyənlər türkə qurban (28, 94)

–yazaraq, türklərin müsəlmanlıq sədlərinə yerləşmədiyini də də vurğulayır.

80-ci illərdə Məmməd Əmin Rəsulzadə ideyaları, Yusuf Akçuranın, Ziya Göyalpın, Əli bəy Hüseynzadənin irəli sürdüyü üç konsepsiyanın təbliği artıq poeziyada qələmə alınmağa başlanılmışdır:

Öndər dedi: – İstiqbal üçün dağ aşalım biz,
İstiqlala, istiqbaıa daim qoşalım biz,
Bir türk kimi islamlaşa, çağdaşlaşalım biz
Amalına bir xalqı inandırdı Müsavat (54, 238).

Şeirin müəllifi Vətən eşqi, vətənpərvərlik duyğuları, azadlıq sevdası fonunda Turançılıq ideyalarını təbliğ edən şairlərdən də biri olan Bəxtiyar Vahabzadədir. B.Vahabzadə Sovetin müstəmləkə boyunduruğına baş əyməyən şairlərdən olub amalı müstəqil Azərbaycanın qurulması idi. Şeirlərində bu ideyanı əsas götürərək türkçülüyü də təbliğ edirdi:

Ey Azərbaycanımız, türkün oğuzlar Vətəni!
Ər oğullar, ər igidlər, kişi - qızlar Vətəni (54,132), –

deyən şair xalqımızı kökü ilə tanış edir

Vətənpərvər şair “Mən türkəm” şeirində bizə unutdurulmağa çalışdıqları milli kimliyimizi göstərir, əsli-kökü– türkçülüyü ilə fəxr etdiyini yazır:

Əslimi, nəslimi tanıyıram mən

Qarışıq deyiləm, özümdən hürkəm.
Sən kimsən, sən nəsən, özün bilərsən,
Mən ilk qaynağımdan türk oğlu türkəm! (54, 144)

B.Vahabzadənin “Haqqı yox”, “İstanbul”, “Azərbaycan-Türkiyə” kimi şeirlərində türkçülük təbliğ olunur.

Nəbi Xəzri də öz soy-kökünə bağlı olub, türkçülüyü, türk tarixi ilə fəxr edən şairlərdən olmuşdur. Şeirlərində türkçülüyün tərənnümünə, təbliğinə açıq şəkildə rast gəlməsək də, “Atillanın atlıları” poemasında böyük türk ərəninin timsalında türk şücaətini görürük:

Biz günəşdən od alırıq,
Yer üzünə gəlirik biz
At belində doğuluruq.
At belində ölürük biz(2, 178).

Müasir Azərbaycan ədəbiyyatında türkçülük, turançılıq ideyaları müxtəlif şairlərin, yazıçıların əsərlərində də öz əksini tapır. Modernizmin təşəkkülü ilə köhnədən uzaqlaşmaq ideyası baxımından bəzən türkçülükdən, turançılıqdan uzaqlaşma sezilsə də, bu ideyaları təbliğ edən modernistlər qalmaqdadır.

Ümumiyyətlə, çağdaş poeziyada türkçülük özünü müxtəlif istiqamətlərdə və formalarda əks etdirməyə başlamışdır. Müasir ədəbiyyatda modernizm cərəyanının inkişafı ilə poeziyamızda da bir sıra dəyişikliklər baş vermişdir. Müasir şeir həm forma, həm məzmun yenilikləri əldə etmişdir. Buna görə də türkçülük ideyalarının modernist şeirlərdə əksi də başqa formalarda ortaya çıxmışdır. Fikrət Sadıq, Vaqif Bayatlı Odər, Elxan Zal, Rüstəm Behrudi kimi şairlərin poeziyasının qayəsini turançılıq  təşkil edir.

Türkçülüyün müasir poeziyada əks olunması bu ideologiyanın da yeni yol və istiqamət alması ilə nəticələnmişdir:

– Türkçülük ideyaları şeirin alt qatında yatır:

Bu cür şeirlərdə türkçülüyü görmək olmur. Şair sanki oxucuların fikrini yayındırır. Lakin dərin düşündükdə insanı türkçülüyün dərin qatlarına aparır.

Müasir poeziyamızın türkçülükdən yazan Vaqif Bayatlı Odərin əksər şeirləri bu tərzdə yazılmışdır. Məsələn:

Bu dağların göyü quş qanadından,
bu torpağın üzü at nallarından
çiçəklərin üzü ay işığından
Doymaz, könlüm, duymaz.

Şeirdə nallarından qığılcım səpələnən türk atlarının səsini, başı göylərə dayanan türk zirvələrini, səmalarında sərbəst uçan azadlıq carçılarını görə bilirik. Şair vətəninin bu cür gözəlliklərindən ayrıla, doya bilmir.

– Şeirdəki türkçülük ideyası ilə başqa mətləblərə də işıq salınır:

Bu cür şeirlərdə türkçülüklə yanaşı Vətən, həsrət, ayrılıq, soy-kökə qayıdış kimi məsələlərdən söz açılır.

Türkçülük ideyalarını öz yaradıcılığında başlıca mövzuya çevirən müasir şairlərdən olan Fikrət Sadığın “Babil gülləsi və türklər”, “Tanrı türkü qorusun”, “Vətən marşı” və başqa şeirlərində turançılıq ideyaları qələmə alınmışdır.

Bir millət oldu yüz millət,
Bir dövlət oldu yüz dövlət,
Bir ağac parçalandı budaq-budaq,
Zaman-zaman sinələrə çəkildi dağ (52, 510).

“Babil gülləsi və türklər” adlı  şeirdən verilən bu parçada  turançılıq ideyası ilə bərabər, türkün tarixi keçmişi də öz əksini tapmışdır. Ümumiyyətlə, Fikrət Sadıq yaradıcılığında  həm türkün əzəməti, həm də tarix boyu başına gətirilən müsibətlər əks olunmuşdur.

– Türkçülüklə bağlı simvollardan istifadə edilir:

Bu cür şeirlərdə poetikliyin artırılması üçün ənənəvi motivlərə müraciət olunur.

Müasir poeziyamızda türkçü şeirləri ilə tanınan Elxan Zal Qaraxanlının yaradıcılığında bu simvolları görə bilərik. Onun "Şaman təbili" şeirində rəmzlərlə poetiklik öz əksini tapır:

Cəngin zamanı gəldi,
Tonqalı yandır! Daram...
Daram, daram, dam-daram
Yuxlamış ruhumuzu
Titrət oyandır daram.
Daram, daram, dam-daram.

Şeirdə avaz, ritm güclüdür. Modernizmdən doğan sərbəstlik və azad ruh şeirin özəyini təşkil edir. Türk birliyinə səsləndirən şair qədim türklərin dini olan şamanizm və onun rəmzlərini simvol olaraq verir.

Rüstəm Behrudi poeziyasında da şamanizm və onun komponentləri alt qatda gizlənir.

Rüstəm Behrudi yaradıcılığında türkçülük ideyaları orijinal şəkildə əks olunmuşdur. Bu səbəbdən də tədqiqatımızda Rüstəm Behrudi poeziyasının araşdırılmasına geniş yer veririk.

# II FƏSİL. RÜSTƏM BEHRUDİ POEZİYASINDA DİL, MİLLƏT, VƏTƏN İDEYASININ POETİK DƏRKİ

## 2.1. Rüstəm Behrudi şeirlerində türkçülük ideyalarının təcəssümü

Müasir Azərbaycan poeziyasında öz dəsti-xətti ilə seçilən, böyük bir millətin qürur və şərəfini, böyük bir xalqın soy-kökünü, tarixini şeirlərində əks etdirən şairlərdən də biri Rüstəm Behrudi olmuşdur. Şairin poeziyasını duymaq üçün onun təbliğ etdiyi ideyaları başa düşmək vacibdir.

1957-ci il sentyabrın 12-də Ordubad rayonunun Behrud kəndində doğulub böyüyən şair ömrünü ədəbiyyata həsr etmiş, yazdığı şeirləri ilə türkçülüyə xidmət göstərmişdir. Milli azadlıq hərəkatının ilk fədailərindən olan şairin bütün yaradıcılığı yeni türk milli düşüncə tərzinin formalaşmasına, fəlsəfi fikrin zənginləşməsinə xidmət göstərmişdir. Onun "Şaman duaları", "Salam, dar ağacı", "Boz qurd", "İblis mələkdən gözəldi", "Din sevdim din üstünə" və s. oxucular tərəfindən rəğbətlə qarşılanmışdır. "Yaddaşlara yazın", "İblis mələkdən gözəldi" kitabları İranda, "Meşədə darıxan ağac" kitabı Almaniyada alman dilində "Der besorqte Baum im walde" (68) adı ilə çap olunmuşdur. 2017-ci ildə çap olunan "Şaman duasından dar ağacına" adlı şeirlər kitabında şairin bir çox ədəbi nümunələri yer alır. Onun şeir nümunələri bir çox dillərə tərcümə edilmişdir.

Müasir Azərbaycan ədəbiyyatında öz dəsti-xətti ilə seçilib iz qoyan, poeziyamızda yeniliklərlə milliliyi birləşdirən şair Rüstəm Behrudi həm Azərbaycanda, həm də Türk dünyasında tanınır. R.Behrudi Türk ədəbiyyatı qarşısında xidmətlərinə görə, Mahmud Kaşqarlı adına beynəlxalq mükafata (M.Kaşqarlı adına medal) layiq görülmüşdür, Avropada keçirilən "Türk dünyası uluslarası şeir" festivalının qızıl mükafatçısıdır. DAK Mədəniyyət Akademiyasının fəxri üzvü, Azərbaycanın bütövlüyü uğrunda "Qızıl qılınc" mükafatının sahibidir.

Rüstəm Behrudinin poeziyasında yenilik ilə milli adət-ənənələr çulğalaşmış şəkildə əks olunur. Bu da şairin poeziyasını orijinallaşdırır. Turançı şairin

yaradıcılığı ilə yaxından tanış olarkən onun poeziyasının spesifik cəhətlərini aydın görə bilərik. Bu cəhətlər həm də ədəbiyyatımızda yeni və bənzərsizdir. Şairin yaradıcılığı üçün səciyyəvi cəhətləri bir neçə hissəyə bölmək olar. Həmin cəhətləri isə yeniliklər kimi qəbul edə bilərik.

Rüstəm Behrudi Azərbaycan poeziyasında türkçülük ideyalarının alovlu tərənnümçülərindən biri olmuşdur. Onun əsərlərində türkçülük, turançılıq ön sıralardadır. İstənilən mövzuda yazdığı şeirlərin qayəsini turançılıq ideyası təşkil edir.

Türkçü şair təbliğ etdiyi Turançılıq ideyalarına görə bütün türk dünyasında sevilən şairlər sırasında dayanır.

Turan –tilsimi biziynən açılacaq bir ölkə

Turan –ruhu sözlərimdə çırpınan bir məmləkət! (15, 5) – deyən şair şeirlərində azərbaycanlıdır, qazaxdır, özbəkdir, türkməndir, türkmandır, Kazan tatarıdır...Oğuz elidir, qıpçaq türküdür...Hər bir türk xalqının soy-kökünə bağlı olan nümayəndəsi şairin poeziyasında özünü görə və duya bilər. Bu məsələyə xüsusi diqqət yetirən akademik Nizami Cəfərovyazır ki, Rüstəm Behrudidə nə varsa, hamısı elə bil ki, türkün emosiyalarıdır, geniş ruhlu bir insanın çılğın hisləridir. Çünki burada əsl türkün obrazı yaradılıb (51, 5).

Görkəmli şair Rüstəm Behrudi əsərləri ilə türk tarixindəki ən şanlı keçmişi də, ən böyük səhvi də müdrikcəsinə öz oxucularına çatdırmış, türk soyundan olduğunu hər zaman vurğulamışdır. O, millət üçün gələcəyə işıq tutan şairlərdəndir. Maraqlısı odur ki, şair Sovetin qadağalarından qorxmayaraq Boz qurda şeir yazmış, hayqırıb bizə türkçülüyümüzdən xəbərdar etmişdir.

Şairin hər əsərində bir böyük Türk doğulur, hər cümləsində türkçülük yatır. Yaradıcılığının ana xəttini, özəyini Turançılıq təşkil edir. Əsərlərinin əksəriyyətində də hadisələr Türk-Turan dünyasında cərəyan edir. Əsərlərinin qəhrəmanları da bu dünyadan seçilmiş igid, mərd türk oğul və qızlarıdır. Turançılığın himni adlandıra biləcəyimiz “Turan” şeiri onun türkçülüklə bağlı fikirlərini ehtiva edir:

And olsun Tanrı dağa
Oda, suya, torpağa
Turan qalxıb ayağa
Qılınclar qına gəlməz (66)

Rüstəm Behrudi yaradıcılığında türkçülük fonunda Güney Azərbaycan mövzusu da verilir. Amma bu mövzu Turançılıq ideologiyasına qarışaraq yoxa çıxır. Güney mövzusunu şairin poeziyasında çox çətinliklə ayırd edə bilirik. Onun fikrincə, Turançılıq olmadan nə Güney Azərbaycan, nə də Qarabağ problemi həll oluna bilər:

Mənə üz tut–yurda ocaq qurana,
"Turan" – deyib Boz qurd kimi durana.
Sonun yoxdu, çevrilməsən Turana –VƏTƏN! (15,11)

Şairin təbliğ etdiyi bütövlük bütün yaradıcılığını əhatə edir. Şairə görə, bütöv olan xalq uzunömrlü olur:

Yox, Vətən, adından danışa bilməz,
Kimin ki, bayraqlı köynəyi yoxdu.
Əgər bütövlüyü yoxsa millətin,
Deməli, heç nəyi, heç nəyin yoxdur (10,92-93).

Türkçü şair Rüstəm Behrudi poeziyasında türk mifoloji və dini görüşləri, kultları da əks olunur. Şamanizm, Boz qurd, ağac kimi anlayışlarla bağlı şeirlər şairin yaradıcılığında üstünlük təşkil edir.

Tanrıçılıq Türk mifologiyasının təməlində dayanıdığı kimi Rüstəm Behrudi poeziyasının da qayəsini təşkil edir. Mifoloji mənbələrdə, elmi ədəbiyyatlarda tanrıçılıqdan həm də əski türk dini sistemi kimi bəhs olunduğu məlumdur. R.Behrudi yaradıcılığında da tanrıçılıq əski türklərin dini kimi qələmə verilmişdir:

Biz göylərdən gəlmişik,

Göylər də yerdi bizə.
Tanrı sevib, qutlayıb,
Türk adı verdi bizə (15,72)

"Türklük özü dindi, din" şeirindən verilən bu misralarda türkün göydən gəlməsi ideyası, eləcə də Göy tanrıya tapınma əks olunur. Şair şeirdəki Göy Tanrının və türkün səma mənşəli olmasını ifadə edir. Tədqiqatçı Ramil Əliyev mifoloq Füzuli Bayata istinad edərək söyləyir ki, "Göy Tanrı dini-mifoloji sistemin paradiqmatik planda monoteizmə çox yaxındır" (25,55). İslam Sadıq isə "Göy və tanrı, göytürk və göy tanrı terminləri haqqında" adlı məqaləsində "Göy tanrı" ifadəsindəki "Göy" sözünün xüsusi isim kimi Tanrı adını bildirdiyini qeyd edir. "Göy/gök tanrı" və "Göytürk" kəlmələrindəki "göy" sözünü rəng bildirmədiyini, rəng anlamı ehtiva etmədiyini yazır (47, 26). Rüstəm Behrudi yaradıcılığında da "göy" sözü məhz səma anlamındadır və Göy tanrıya tapınmanı öz şeirlərində əks etdirir. Şairin "Qurd başlı tuğlar bizim", "Haqq sevən bəndəyə elə dindi türk", "İblis" və digər şeirlərində Göy tanrının obrazına, eləcə də, ona olan inamın ehtivasına rast gəlirik.

Türklərin qədim dini hesab olunan Şamanizm Rüstəm Behrudi yaradıcılığında qırmızı xətlə keçir. Onun bir çox şeirlərinin adında "Şaman" sözünün olması da bunun bariz nümunəsidir. Son çap olunmuş şeirlər toplusunun "Şaman duasından dar ağacına" adlandırılması da səbəbəsiz deyildir. "Vida türküsü", "Şaman duası", "Şaman nəvəsiyəm mən yurd yerində", "Türklük özü dindi din" kimi şeirlərində şamanizm və onun elementləri əks olunmuşdur. "Vida türküsü" şeirində şair bir çox xüsusiyyətləri ilə –özünü qurda bənzətməsi, Göy tanrıya tapınması, şamanizm inancı ilə başdan-ayağa türkdür.

Bu gün Şaman imanını,
Öz içində Turanını,
"Damarında türk qanını
Zərrə-zərrə bulan gəlsin" (15, 43).

"Şaman duası" şeirində göylərə tapınan şaman obrazında olan şair müasir dövrün problemlərinə də toxunur. Şair bu problemlər fonunda türkçülüyünü unutmur, əbədi və sonsuz Tanrını tərənnüm edir:

Sonsuzluq – Tanrı kimi
ayıynan, ulduzuynan.
Şaman kimi göylərə
Üz tutub durmuşam mən,
Durub qabaq-qabağa
Göyüzü yalqızıynan ( 15, 63)

Şair şamanizmlə bağlı olan bütün inancları da poeziyasında əks etdirir. Bu inanclar şairin yaradıcılığında bəzən açıq, bəzən isə simvollaşdırılmış şəkildə verilir:

Şamanam nur içində,
Nurun da taxtı bizim.
Tanrı türkü qutlaylb,
İşimiz haqdı bizim (15, 72).

Verilən bənddə antropomorfik səciyyə daşıyan ibtidai təsəvvür özünü göstərir. Şeirdə nur Günəşin simvoludur. Bildiyimiz kimi, qədim türk xalqlarında Günəş müqəddəs hesab olunmuşdur. Ona görə də bu rəmz müqəddəsliyi təcəssüm etdirir. Mənbələrdən də aydın olur ki, "şamanlar uğur rəmzi kimi paltarlarına Günəş şəkli çəkdirmişlər" (1 , 136).

Qədim türklərin mifoloji düşüncəsində Günəş həm Tanrını, həm də əcdadı bildirmişdir. "Sadə sosial konteksdə Gün Oğuzun böyük oğludur, nəvələrinin atasıdır. Dünya modelinin strukturunda Xaos (Qara xan-Oğuzun atası)-Kosmos(Oğuz) münasibətlərinin vəhdət və ziddiyyətindən yaranan yeni həlqəni Gün təşkil edir. Əslində, Gün xan və Qara xan xaos-kosmos modelinin tərəfləridir. Oğuz onları əlaqələndirən və eyni zamanda yeni kosmosun xaosda sakrallaşmasını

təmin edən mediatordur. Buradan alınan nəticəyə görə, Gün günəşdir və ya Tanq Tenqridir. Başqa deyilişlə də, Tanq Tenqri astral səviyyədə günəşlə, etnos səviyyəsində Oğuzla, insan səviyyəsində Gün xanla simvolizə olunmuşdur"(32,48).

Bu mənada R.Behrudinin "Canım işıq, gözüm işıq" şeirindəki "işığ"ı Günəşin rəmzi kimi qəbul edə bilərik. Şair işığı "canım", "gözüm", "sözüm", "ürəyimin yağı", gözlərimin qarası", "anamın üzünün nuru", "bacılarımın sevgilisi", "qardaşlarımın yarası", "yurdumun parası" kimi metaforalarla tərənnüm edir:

Boz qurdumun ovu,
İlk tanrımın evi işıq!

– misralarında qədim türk təfəkküründən doğan Günəşə etiqad öz əksini tapır.

Rüstəm Behrudi poeziyasında Qara xan, Oğuz, Dədə Qorqud, Güntəkin kimi dastan obrazları da əks olunur. "Yaradılış məsələsi" şeirində şair "Yaradılış" dastanına əsaslanaraq, dünyanın yaranmasından söz açır:

Bir vaxt,
Dünya dediyimiz bir yer kürəsi
Üzürdü sularda başına yalqız.
Tanrı-Qara xanla sular üzbəüz, -
Bir tanrı varıydı, bir də su yalnız... (15, 61)

"Ata dili" şeirində şair əski türk dastanlarına müraciət edir:

Hardasan, Oğuzun müqəddəs ruhu?!
Gəl, məni təmizlə, kədər, ey kədər!

–deyərək bu ruhun saf, təmiz olmasına işarə edərək türkləri ən ali xalq hesab edir.

Gərək Dədə Qorqud, Güntəkin babam,
Təzədən üz tutam yazına indi.
Ata kitabların unutduğumdan
Əsirəm yad qadın nazına indi (15, 38)

Bu bənddə öz soy-kökünü unudub başqa millətdən olan qadınlarla evlənənlər kəskin ifşa edilir.

Rüstəm Behrudi poeziyasında türkçülüyün simvolu olan boz qurd qəhrəmanlığı, igidliyi, eyni zamanda da təkliyi rəmzləşdirir. Onun dillər əzbəri olan "Boz Qurd" şeiri yaradıcılığında bir başqa mərhələdir. Şairin türkçü hisləri, Vətən sevgisi bu şeirində də sezilir. Bu hislər fonunda Vətənin kədəri, dərdi – parçalanması, işğal olunması kimi məsələlər qabardılır:

Hər gecə, hər gecə yuxularımda
Çadırı dağılmış, ocağı sönmüş,
Tanrı qarğışıyla taleyi dömmüş, (15,15)

– deyən şair qeyd edir ki, əgər bir gün qəm sərhəddinin taleyi dönük çıxandan sonra bütün hər yerdən – dağından, daşından, yerdən, göydən, hətta adamlardan da qəriblik yağır. Qara torpağında əkilən hər bir şeydən də ayrılıq toxumu cücərir. Sevimli yurdunu yuxusunda görən şair bu ayrılıqdan mütəəssər olur.

"Boz qurd obrazı Rüstəm Behrudi yaradıcılığında bədii mətnin ruhunun tıminatçısıdır" (24, 26). Məlumdur ki, türk mifoloji düşüncəsində kultlaşmış obraz olan qurd türkün həyatında, dünyagörüşündə, tarixində, folklorunda özünəməxsus yer alır. Qədim türk inancına görə, onalrın əcdadlarının soyu qurdlardan törəmişdir. Türklər səfərlərdə olarkən və yollarını azarkən boz qurd peyda olmuş və onlara yol göstərmişdir. Bu qurdu canavarla eyniləşdirmək olmaz. Rəngi tünd boza (bir az da göyə) çalan qurdlar quruluşuna və xarakterinə görə canavarlardan fərqlənir. Boz qurd türk inancında, dünyagörüşündə, bir sözlə, mifoloji düşüncəsində səmadan düşən sakral, müqəddəs bir varlıqdır. Boz qurd kosmoqonik aktın iştirakçısı, ilkin əcdad funksiyasının isə daşıyıcısıdır. Göytürk inancına görə, boz qurdun dişisi əcdad kimi "Ulu ana" kompleksini səciyyələndirir. Uyğur türklərində isə erkək qurd əsasdır və "Ulu ata" hesab edilir. Oğuzlarda da erkək qurdlar yol göstərici, səfər başçısı funksiyasına malikdir. Tarixi mənbələrdən də aydın olur ki, Göytürk xaqanları boz qurda bənzədilmişdir.

Qurdun türk totemi kimi seçilməsi də səbəbsiz deyildir. Türkü başqa millətlərdən fərqləndirən, səciyyələndirən bu simvol totemləşmiş, millətin simasına çevrilmiş, xalqın xarakterini ehtiva etmişdir. Şamanizmdə də qurdun müqəddəs olması musiqi alətlərindəki təsvirindən məlumdur.

Rüstəm Behrudi yaradıcılığında da kultlaşan bu obraz motivə çevrilir. Şair çəkinmədən qurdu türkün soy-kökü hesab edir:

Mayası qurddan gələn
Özgə bir dinə gəlməz...
Şamanam içim köz-köz...(10,9).

O da yeri gəldikcə qurdu şamançılıqla bağlayır. Ümumiyyətlə, şaman və türkçülüyün vəhdəti Rüstəm Behrudi yaradıcılığı üçün səciyyəvidir. Ona görə də istənilən milli motiv Şamançılıq boyaları ilə təsvir edilir.

Rüstəm Behrudi poeziyasındakı Boz Qurd da kult kimi ölməzdir, amma tənhadır, kimsəsizdir. Tənhalığını ulamaqla göstərir:

Bu payız gecəsi ay işığında,
Mən, mən unudulmuş, kimsəsiz ada.
Bir aydı, bir də mən, ona üz tutub,
Qurd olub ulamaq istəyir adam... (15,194)

Şair yeri gəldikcə türklüyün totemi olan qurda çevrilmək istəyir, əcdadına qayıdır. Dədə-babalara məsləhət görür ki, nəvələrinə öz soy-kəklərindən danışsın. Adətən, nənələrin nağıl deməyinə öyrəşdiyimiz halda, şair babadan nağıl istəyir. Həm də qurd nağılı..."Qurd və yaxud qurd nağılı" adlanan bu şeirdə Behrudi modernizmlə ənənəviliyi birləşdirir. Şair dədədən təkcə qurd nağılı istəmir, yurd əhvalatı, həyat dərsi almaq istəyir:

Danış, qoy görünsün bu sirli dünyam-
Vətən oymaq-oymaq, Vətən kəndbəkənd

Danış, qoy səsində atlar yügürsün,
Bir ucu Urmiya, bir ucu Dərbənd (15, 59).

Şairin poeziyasında dağ kultu ilə bağlı da bir çox məqamlara rast gəlirik. Rüstəm Behrudi yaradıcılığında türkçülük üçün səciyyəvi olan dağ motivi əksini tapır. Əski türklər üçün dağ müqəddəsləşmiş məkandır. Türkçü şairin yaradıcılığında da dağ təkcə bir coğrafi obyekt kimi verilməmiş, hisslər və düşüncələrlə yoğrulmuş, sanki bir növ obraz səviyyəsinə qaldırılmış varlıq olaraq gözümüzün önündə canlanır. "Oğuznamələr"də də oğuz elinin sakinləri dağlarla danışır, dağlara alqış və ya qarğış edir, dağların qocalığından, onların yıxılmalarından qorxur, bunun üçün də dağlara əsənlik diləyir, dağlardan şəfa dilənir və yaxud andlar içir, dağlara salam verirlər. "Kitabi-Dədə Qorqud" dastanının boylarında dağlar olduqca müxtəlif məqamlarla əlaqədar qarşımıza çıxır. Abidədə dağ "qarlı-buzlu", "qutluca", "ağaclı", "qara", "keyikli", "gün dəyən", "köksü gözəl", "su damar", "ala", "otlu", ala", "qarlı-buzlu", "gün dəyən", "gögcə", "ucu", "ucalan" və başqa təyinlərlə verilmişdir. Həm Rüstəm Behrudi yaradıcılığında, həm də "Kitabi-dədə Qorqud"da dağlar mifik, yarı mifik, eləcə də mifiklikdən tam azad bir şəkildə qarşımıza çıxır. Məsələn: "Qarşu yatan qara qarlu dağlardan aşar olsa, Allah Taala sənin oğluna aşut versün!" (36, 55), "Yerdən yuca dağlar başına yoldaşların alub çıqdı"(36,83), "Dəpəgöz Oğuzdan çıqdı, bir yuca dağa vardı" (36,126).

Rüstəm Behrudi yaradıcılığnda "dağ" yurddur, eldir, obadır:

Bir dağam –qurdu ölən,
Bir eləm –yurdu ölən.
Bilir ki, məni bilən,
İman adlı silah var (15, 148).

Şair melonxolik notlarla şeirə başlayır. Özünü qurdu ölmüş dağa bənzədən şair klassik şeirlərdən fərqli olaraq, onun əzəmətini deyil, acizliyini təsvir etmiş, duyğulara qapılaraq qələmə almışdır.

Bundan başqa, türkçü şair dağı tanrıçılığın məkanı kimi qəbul edir:

Yenə də qılınclar çıxıbdı qından,
Qisas almalıyam dar ağacından.
Başına bu sevda Tanrı dağından –
– Qibləmiz Altaydan –ilk yurddan gəlir (15, 18).

“Qurd başlı tuğlar bizim” şeirində də eyni motiv əksini tapır:

Ucadadı, ey yağı,
Hiradan Tanrı dağı.
Sənin o puç, bayağı,
Məbədin viran olsun! (15, 19).

Şairin “Vətən” şeirində “Kitabi-Dədə Qorqud” dastanındakı müraciətə rast gəlirik:

Qarşı yatan qara dağı –yaylağım,
Düzənləri, ormanları –oylağım.
Əyilməyən çinarları –bayrağım –VƏTƏN(15, 11).

Dastanın “Duxa Qoca oğlu Dəli Domrulun boyu”nda Dəli Domrulun atası Əzrayıla “qarşı yatan qara dağı”nı yayla olaraq peşkəş verir, lakin canını qurban etmək istəmir:

Qarşu yatan qara dağım gərəksə,
Söylə, gəlsün, –Əzrayilin yaylası olsun! (15, 99)

Hər bir türk xalqının etnik kimlik simvolu olan Ağrı dağ digər şairlərin poeziyasında olduğu kimi, Rüstəm Behrudi şeiriyyətində də özünü göstərir:

Ağrı dağda Promotey
Zəncirləndi milyon il
(Allah allaha düşmən!)
Yenə dedi: – Çox şükür,
Əbədi əzab deyil (15, 150)

Ağrı dağ Azərbaycan ədəbiyyatında ucalıq, əlçatmazlıq, üzyetməzlik rəmzi kimi işlənmişdir. Məsələn, Almaz İldırımın poeziyasında da Ağrı dağ rəmzləşdirilmişdir:

Salam desəm, rüzgar alıb götürsə,
Ağrı dağdan Alagözə ötürsə,
Gur səsimi göy Xəzərə yetirsə,
Xəzər coşub zəncirini qırsa, oy!
Hökm etsə, bu, sərsəm, gediş dursa, oy!

Bir sözlə, Dağ kultu həm Rüstəm Behrudi yaradıcılığında, həm də dəyərli abidəsi olan “Kitabi-Dədə Qorqud” dastanında, eləcə də digər abidələrimizdə, həmçinin müasir poeziyamızda da oğuzların ailə-məişət həyatı, qəhrəmanlıqları ilə bağlı olan bir sıra müxtəlif məqamları əks etdirməklə bərabər, sanki canlı bir insan kimi qarşımızda dayanır.

Rüstəm Behrudi yaradıcılığında ağac motivinə tez-tez rast gəlirik. Ağac motivi türkçülüklə sıx bağlıdır. Şair ağacdan ustalıqla priyom kimi istifadə edir. Bildiyimiz kimi, ağac türk təfəkküründə və inancında Göy Tanrının simvollarından biri olub, insanla Yaradan, yer ilə göy arasında əlaqələndirici vasitədir. Bu vasitə də ağacın obrazlaşdırılması ilə nəticələnmişdir. Bu səbəbdən də türklərdə ağaca sevgi, hörmət, ehtiramı təkcə tapınma ilə əlaqələndirmək olmaz. Altay türk mifologiyasında “Bay-Kayınq”; eləcə də nağıllarda “Temir terek”; ümumi türk mifologiyasında isə “Bay terek”, “Temir kavak” və yaxud “Həyat (Dünya)” ağacı” deyə müxtəlif şəkillərdə adlandırılan “övliya ağac” inancına təkcə türk mifoloji düşüncə sistemində deyil, bir

çox dünya xalqlarının mifologiyasında təsadüf etmək mümkündür. Mahmud Kaşğari oğuzlar haqqında məlumat verərkən onların "ulu, uca və böyük" hesab etdikləri bir ağacı "Tenqri" deyə adlandırmalarından, Dərbənd yaxınlığında həyat sürdürən yerli əhali, yəni qumuqlar tərəfindən bu cür ulu saydıqları bir ağaca "Tenqrixan" deməlstartindən danışmışdır. Əslində isə bu cür məlumatlar göstərir ki, türklərin düşüncəsində müqəddəs hesab edilən həmin ağac Tanrının ilahi sifətlərini özündə birləşdirir (16,17).

Behrudi yaradıcılığında isə ağac motivi bir sıra funksiyalara sahibdir və bir çox məqsədlərə xidmət göstərir. "Dərd öldürmür adamı" şeirində şair özünü ağaca bənzədərək payızda solan ağacı insan ömrü ilə müqayisə edir:

Bu payız gecəsi çılpaq ağacam,
Bu payız gecəsi ölən bir budaq.
Allahın ömrü tək uzanır gecə;
Elə bil heç sabah açılmayacaq. (15, 194)

Şairin 80-ci illərdə məşhurluq qazanan "Salam dar ağacı" şeirində də eyni motivlə rastlaşırıq. Bu şeirin məşhurluq qazanması, sevilməsinə də səbəblərdən biri məhz mifopoetik ənənə ilə bağlıdır.

Yolunu gözlədin hər səhər, axşam,
Salam, dar ağacı!
Əleyküm-salam.
Əcəllə ölməyə doğulmamışam,
Salam, dar ağacı!
Əleyküm-salam! (15, 12)

Miflərdə, dastanlarda, nağıl və rəvayətlərdə əksini tapan ağaca müraciət, onunla görüşmək, salamlaşmaq, xəbərləşmək xüsusiyyəti Rüstəm Behrudinin bu şeirində də görürük. Şair ağacla salamlaşır, dərdini açır, iki yol - "ölüm" və "qalım" arasında

qalaraq "Ya səni yendirrəm, ya sənə yennəm" deyir. "Eli yağmalanan, çayları quruyan" şair "Kitabi-Dədə Qorqud" dastanından "boylanır". "Kitabi-Dədə Qorqud"dastanında "Salur Qazanın evinin yağmalanması" boyunda Uruzun ağacla söhbətləşdiyi hissəyə nəzər yetirək: "Mərə kafir, aman! Tanrının birliginə yoqdur güman! Qoy məni bu ağacla söyləşəyim" –dedi. Çağırub ağaca soylamış, görəlim, xanım, nə soylamış:

Ağac, ağac! Dersəm, sana, ərlənmə ağac!
Məkkə ilə Mədinənin qapısı ağac!
Musa Kəlimün əsası ağac!..
Əgər ərdir, əgər övrətdir, qorxusu ağac!
Başın ala baqar olsam, başsız ağac!
Dibin ala baqar olsam, dibsüz ağac!
Məni sana asarlar, götürməgil ağac!
Götürəcək olursan, yigitligüm səni tutsun, ağac!
Bizim eldə gərək idin, ağac!
Qara hindu qullarıma buyuraydım,
Səni para-para doğrayalardı, ağac! (36, 46)

İki şeir arasında müqayisələr aparsaq, eyni məzmun xüsusiyyətlərini görə bilərik. Hər iki şeirdə də obraz ağaca müraciət edir, ağacı qorxudur, ölümün baiskarı olacağı halda Uruz da "Qara hindu qulların onu doğrayacağını", Rüstəm Behrudi şeirinin qəhrəmanı isə "sənin canın mənəm, hər yanın mənəm" deyərək hədələyir.

Türkçü şairin yaradıcılığında qədim türk dastanlarına məxsus olan obrazlara, eləcə də türk tarixi qəhrəmanlara rast gəlirik. "Haqq sevən bəndəyə elə dindi türk" şeirində Qara xan, Göy Tanrı, Mete, Oğuz, Güntəkin kimi dastan və tarixi qəhrəmanlarının adları çəkilir. Şair fəxrlə deyir ki

Mənim ruhumdakı bu üsyan,qiyam.
Tanrıqut Metedən, Gürşaddan gəlir (15, 18)

Akademik Nizami Cəfərov haqlı olaraq yazır ki, “Rüstəm Behrudidə nə varsa, hamısı elə bil ki, türkün emosiyalarıdır, geniş ruhlu bir insanın çılğın hissləridir. Çünki burada əsl türkün obrazı yaradılıb” (51, 5).

Turançı şair şeirlərinin baş obrazlarının əksəriyyətində şairin özüdür. Bu şeirlərdə şair öz obrazını qələmə alaraq onu turançı, türkçü edir. Bəzən isə türkün şanlı keçmişinə, əsərlərinə müraciət edir. Behrudi şeiriyyətində Gürşad obrazı tez-tez işlədilir. Bu obraz mənəvi-ruhi varlığın, azadlığın, bütövlüyün rəmzidir. Şairin estetik idealının təcəssümü olan Gürşad təmiz ruhun, böyük idealların ifadəçisidir:

Təkcə sən bilirsən mən kiməm axı
O nur da, Gürşad da sənə bəllidir.
Mənimtək o nuru görüb sevməyin
Ruhuma ən böyük bir təsəllidir (29,23).

Rüstəm Behrudi türk dünyasının böyük alimlərinə, yazıçılarına şeirlər həsr etmişdir. Oljas Süleynamova açıq məktub kimi yazdığı “Hər şey ayrılıqdan başladı” şeirində R.Behrudi bir çox şairlərimizi yad edir, türk xalqlarının bir-birindən ayrı düşməsindən şikayət edir. Bu ayrılıqların səbəblərini axtaran şair qeyd edir:

Bilirsinizmi,
Hardan doğdu fərqimiz,
Bilirsinizmi,
Aşkabadda, Buxarada,
Həmədanda, Dərbənddə,
Kərkükdə, Ərzurumda
Yana-yana hönkürən
Hər sözü qəm şərqimiz
Niyə belə qəribədir? (15, 25)

Rüstəm Behrudi yaradıcılığında sayların da öz poetik ifadəsi var. Turançı şair türk təfəkkürü üçün səciyyəvi olan rəqəmlərin də simvolikasından istifadə edir. Rəmzlərlə verilən bu saylar türkçülüklə bağlanıla bilər:

“Turan qalxıb ayağa” şeirində doqquz Oğuzdan söz açılır:

On uyğur, doqquz Oğuz,
İçində mənəm yalqız.
Dərdimi sevdiyim qız,
Söyləsəm, sona gəlməz (15, 34).

Şair poeziyasında oğuzların qollarına işarə etmək üçün doqquz rəqəmindən istifadə edir:

“Canım ağac, gözüm ağac”
Canım ağac, gözüm ağac!
Köklü ağac, qaba ağac
Tanrımızı bizdən əvvə
Doqquz budaq yaratdığı
Babamıza baba ağac”
Kölgəsinə barındığım –
Barındığım (15, 67).

Doqquz türk xalqlarının uğurlu müqəddəs rəqəmidir. Türk mifologiyasına, mədəniyyətinə nəzər salsaq görərik ki, doqquz rəqəmi ağac, boy, fələk, Oğuz və s. sözləri ilə birgə işlədilir. Ümumiyyətlə, bütün türk xalqlarında doqquz rəqəminin Tanrı tərəfindən müqəddəsləşdirildiyinə inam mövcuddur. Bu da doqquz rəqəminin hələ xalqların formalaşmadığı, tayfaların bir-birindən ayrılmadığı zamanlardan bəri sakrallığına işarədir. Yusif Vəzir Çəmənzəminli bunu irqlə əlaqələndirərək yazırdı: “Hər bir irqin özünə məxsus rəqəmi var: türkün 9, samilərin 40,7, qədim Misir və yunanın 12” ( 21, 279).

Rüstəm Behrudi türklərin sakral rəqəmi olan yeddidən də çox istifadə etmişdir. “Qiyamət” şeirində şair yeddi rəng və səsdən (notdan) söz açılır:

Yeddi rəng bir rəngdi daha,
Səslər də yekrəngdi daha.
Hamı tənha, təkdi daha
Gələcək heç gəlməyəcək (15, 163).

Türk mifoloji təfəkküründə, xüsusilə, “Oğuznamələr”də ilk rəqəmlərin sıralanması yeddilik sistemin içərisində idi. Yeddi “Dədə Qorqud”, “Koroğlu” dastanlarında ən çox işlənən rəqəmlər sırasındadır.

Ən maraqlı cəhət kimi isə onu göstərə bilərik ki, rəqəmlər Oğuz igidlərinin təsviri üçün də istifadə edilmişdir. Məsələn:

Qaragünə ilə bağlı olan “Qara Dərə ağzında Qadir verən, qara buğa dərisindən beşiginin yapuğı olan, acığı tutanda qara daşı kül eyləyən, bığın ənsəsində yedi yerdə dügən, ərənlər əvrəni Qazan bəgin qardaşı Qaragünə çapar yetdi” (36,49) cümləsində qəhrəmanın bığı yeddi rəqəmi ilə simvollaşdırılır. “Yedi qızın umıdı Boz ayğurlu Beyrək”(36, 49) ifadəsi ilə isə Bamsı Beyrək təsvir edilir.

“Koroğlu” dastanında da yeddi rəqəmi bir çox məqamlarda işlədilir. Koroğlunun dəlilərinin sayı yeddi min yeddi yüz yetmiş yeddidir. Dəmirçioğlu hər gün Cəfər paşa tərəfindən yeddi pəhləvana döydürülür. Alı kişinin istədiyi qılınc yeddi gündə düzəlir. Qoşabulaq yeddi ildən bir köpüklənir. Koroğlu yeddi gün mühasirədə qalır.

Fikirlərimizə belə yekun vura bilərik ki, Rüstəm Behrudi başdan-ayağa türkçüdür, hətta mövzu müasirliklə bağlı olsa da, şair motivləri ustalıqla türkçülüyə bağlamağı bacarır.

### 2.2. Rüstəm Behrudi poeziyasında tarix və müasirlik

R.Behrudi poeziyasında turançılıq, vətənpərvərlik və xəlqilik ideyaları vəhdətdədir. Bu ideyalar zəngin poetik çalarlarla, yüksək obrazlılıqla, çevik formada

öz bədii əksini tapır. Sülh və azadlıq sevdası ilə yaşayan şair türkçülük və demokratiya uğrunda savaşmaqdan çəkinmir. Bu mövzuda yazdığı şeirlərdə vətən və xalq anlayışı vəhdətdə olur, şair türkçü və vətəndaş kimi öz mövqeyini sərgiləyir. Şairin vətəndaşlıq hissləri, duyğuları ilə lirik qəhrəmanın düşüncələri, duyğuları və ehtirası tarazlaşır. O, türkçü olmaqla bərabər, həm də vətəndaş şairdir. Vətəndaşlıq mövqeyi, türkçülük məhəbbəti onun ictimai məramının, estetik idealının mayasını, qayəsini təşkil edir. Şairin vətən sevgisi məhdud deyil. Şairin poetik düşüncələrinin coğrafi arealı geniş və hüdudsuzdur. Şeirlərində türk dünyasını genişliyi ilə tərənnüm edən şair tarixiliyi nəzərdə tutaraq Altaya tərəf (qibləsini Altayda görür) basdırılmağı vəsiyyət edir:

Nə yapsam günah, səhv ilə,
Getdiyim yola əfv elə,
Üzü Altaya dəfn elə,
Son yolun məndən keçəcək.

Rüstəm Behrudi yaradıcılığının ruhu təbii və müasirdir. Onun poeziyasında insan və zaman, insan və varlıq, insan və sürət, insan və kainat paralellikləri dayanır. Behrudi poeziyasının obrazı yeni insan tipidir. Yeni, müasir, texnikadan anlayışı olan, kapitalizmin qaydalarına uyan insan məhəbbətə fərqli yöndən baxır.

"Mən kölgəmi adladım", "Əbədiyyət qorxusu" adlı şeirlərində insanın zaman daxilində davranışları ön plana çıxır:

Ey sonsuzluq, sonrasızlıq,
Zaman adlı ölçünü yıx.
Məndə duran ana gəl çıx,
Çünki andan keçməliyəm (15, 144)

bəndində zaman daxilində və xaricində də yeni anlayışlar hökm sürür. Şair zaman adlı ölçü anlayışını dağıtmaq istəyir, əvəzində isə mənəvi bir "zaman"

yaradır, qarşısındakından da o zamana gəlməyə dəvət edir. Başqa bir nümunəyə nəzər yetirək:

Vaxt adlı qürbətdyəm,  
Zamanı içib gəldim.  
Min üç yüz il ardından  
Bu günə köçüb gəldim(15, 145).

Şair "zamanın su kimi axması" ifadəsinə uyğun olaraq "zamanı içib gəldim" cümləsi ilə ifadə edir. Şair xəyalən zaman dəyişdirir. Mövcud vəziyyətdə yaşadığımız bu vaxtı isə "qürbət" adlandırır.

"Gələcək heç gəlməyəcək" şeirində isə şair zamanı "Tanrı ölçüsü" hesab edir:

Zaman Tanrı ölçüsüdü,  
Nə ölər, nə itər Tanrı tək.  
Zamanı, vaxtı öldürdük,  
Gələcək heç gəlməyəcək (15,140).

Sonrakı bəndlərdə isə zamanı buluda, yağışa, küləyə, yola bənzədir. O, "daha yol yoxdur Allaha" deyərkən zamanının olmadığını söyləmək istəyir.

R.Behrudinin şeirlərinin insanı çox zaman qeyri-adiliyi ilə fərqlənir. Nə klassik ədəbiyyatda, nə də müasir poeziyada biz bu obraza rast gəlmirik. Onun obrazları qeyri-adiliyi ilə seçilirlər.

Sən göydən gəlmisən, göy adamısan,  
Tanrının işindən bir xəbər denın.  
Nə qalır sonuncu Tanrı dərsinə?!  
Qiyamət gününə nə qalır, de nə?! (15, 221).

Şair göydən gələn xəyali obrazla söhbətləşir, dərdləşir, dünyanın əvvəlini və axırını soruşur, maraqlanır. Amma eyni zamanda bir cavab da ala bilmir.

Rüstəm Behrudi şeirlərində sadalaladığımız xüsusiyyətlərin qayəsini Vətən, yurd sevgisi təşkil edir. Onun ədəbiyyatımızda tutduğu yol millət üçün gedilir. Necə deyərlər, "Bu yolun başlanğıcı da, sonu da Vətəndir!" (24, 26). Şairin duyğuları bəşəri keyfiyyətə malikdir.

Şairin şeirlərində tarixilik də öz əksini tapır. O, türk qəhrəmanlarını, şahlarını poeziyasına gətirir, tarixə nəzər salır:

Bu Turan yoludur - gərək bu yurdun.
Bir kiçik daşı da vətən sayıla
Bu yolun sonunda dərs vermıliyım
Sultan Səlim ilə Şah İsmayıla (15, 86).

Və ya "Ata dili" şeirində uzun Həsənin həyat yoldaşının türk qızı olmadığına görə təəssüflənir:

O Uzun Həsənin əksi gözümdə,
Dolaşdı ər kimi bu yurd boyunca...
Halalı, qadını kim oldu?!
Yad qızı
Oturum, ağlayım, dinim, oyunca (15, 37).

"Yol" şeirindən verilən bu nümunədə şair Çaldıran döyüşünə işarə edərək bu mübarizəni tənqid edir. O, Turanı parçalayan hər kəsi günahkar sayır, yolunu bir gün böyük Turan elindən salmağı arzulayır.

Rüstəm Behrudi şeirlərində tarixi, əfsanəvi qəhrəmanlar, qədim ərazilər, türkün dünyagörüşündən, mifoloji düşüncəsindən qaynaqlanan obrazlar onun ideyasının qavranmasına xidmət göstərir.

Xalq yaradıcılığından bəhrələnməni də R.Behrudi poeziyasında müşahidə edirik. Xalq yaradıcılığından bəhrələnən şairin poeziyasında dərviş motivinə də rast gəlinir. Onun yaradıcılığında tanrıçılıq fəlsəfəsi ilə yanaşı duran ikinci mövzu məhz

dərvişlikdir. Dərviş nağıl, dastan ənənəsində Ulu (Yer) Ana kompleksindən gəlmiş şamanın atributlarını daşıyır. Dərvişin bəzi nağıllarda Xızır, ağsaçlı nurani qoca kimi buta verməsindən onun ruhlar dünyasına məxsus olduğu da başa düşülür. Anadolu nağıllarında rast gəlinən kürkünə zınqırov asmış dərviş qam-şaman obrazına yaxınlaşır. Şamanın yerinə yetirdiyi bir sıra funksiyalar sonrakı dövrlərdə dərviş obrazına keçmişdir(16, 101). Dərviş obrazı folklorda çox zaman sakral xüsusiyyətlərə xas, qoca, ruhani, cırıq, nimdaş paltarlı, ağıllı, təcrübəli, bəzən hiyləgər kimi əks olunur. Dərviş obrazına bəzi nümunələrdə yardımsevər, xilaskar kimi, bəzi nümunələrdə övlad, buta verən biri kimi rastlayırıq. Məsələn, "Əsli və Kərəm" dastanında aşiqləri tufandan dərviş xilas edir. "Abbas və Gülgəz" dastanında baş obrazı quyudan dərviş çıxarır. "Novruz", "Tahir və Zöhrə" dastanlarında aşiqi alma, şərab kimi vasitələrlə butalayır. "Qurbani" dastanında, "Uşaq pəhləvan", "Məlik Məmməd" nağıllarında uşaq verən məhz dərvişdir. Bəzi folklor nümunələrində, klassik əsərlərdə mənfi obrazlı dərvişlərə də rast gəlirik.

Rüstəm Behrudi poeziyasında dərviştək haqqa sığınır, öyüd verir, nurani obraz, müdrik qoca olur. "Bu gündən dərvişəm daha" şeirində şairi haqqa çatan, aşiq obrazını dərviş libasında görürük:

Odumdan çəkdim gülümü,
Gedirəm tapım ölümü,
Ver xirqəmi, köşkülümü
Bu gündən dərvişəm daha (10, 229).

Şeirə nəzər yetirdikdə görürük ki, buradakı dərviş dastan və nağıllarda rast gəldiyimiz buta verən, yardım edən dərvişdən çox "pay alan" dərvişdir. Bu dərvişə qədim abidəmiz olan "Kitabi-Dədə Qorqud" da bir neçə yerdə rast gəlirik. Çünki dərviş burada xüsusi gücə malik, ilahi həqiqətlərdən xəbərdar olan, yardım edən biri kimi təsvir edilmir. Məsələn "Dirsə xan oğlu Buğac xan Boyu"na nəzər yetirək: Dirsə Xanın arvadının dilindən-"Qara donlu dərvişlərə nəzirlər verdim" şəklində

işlənir(36,31). Lakin bu o demək deyil ki, şeirdəki dərviş təkcə pay almaqla kifayətlənir. Şair onu eşq yolçusu olduğunu da poetik ifadələrlə göstərir.

Eşq olsa da eşqin adı,
Şam-pərvanə nağılıdı.
Eşq məbədim dağıldı,
Bu gündən dərvişəm daha (10, 229)

"Ölüm bilmir" şeirində də şair "təmənnasız dərviş" ifadəsini işlədir. Deməli, şairə görə, "təmənnalı dərviş" də mövcuddur. Bu cür dərviş haqqında yuxarıda verdiyimiz şeirdə bəhs olunmuşdur.

Təmənnasız dərviş olan
Bilir birdi ölən, qalan
Nə doğru var, nə də yalan
Aləm bilir, zalım bilir (15, 119).

Bu bənddən aydın olur ki, təmənna güdməyən, pay istəməyən dərviş həyatın hər üzünü bilir, insanları yaxşı tanıyır.

"Son yolun məndən keçəcək" şeirində də Tanrı eşqinin yolçusu olan dərviş yer almışdır:

Gör mənə Tanrı neylədi?
Yol verib yoldan əylədi
Əyləyib dərviş eylədi;
Bu yol ki qandan keçəcək (10**,** 222)

"Oturum kədərli bir şeir yazım" adlı şeirdə şair öz obrazını dərviş kimi vermişdir:

Dərviştək hər şeyə könülsüzəm mən,
Qələmlə, kağızdır olar, olmazım.

Dünyanın ən qərib adamı mənəm,
Oturum kədərli bir şeir yazım (15, 9).

Bəzən isə Rüstəm Behrudi dərvişlikdən imtina edir:

Dərvişlikdən məni poz,
Ya şəhid, ya qazi yaz.
Gözümə bax yazı yaz,
Ürək gözün içində (15, 77).

Şair burada türkçülük ideyalarından daha çox Vətənə sevgi və sədaqətini əks etdirir. Vətən yolunda şəhid və ya qazi olmağa razı olan şair gözlərindəki Vətən eşqinə işarə ilə "ürək gözün içində" yazır.

"Son yolun məndən keçəcək" şeirində Tanrını "axtaran şair" sətiraltı ifadələrlə türk dünyasının genişliyini, Altaya qədər gedən qədim torpaq sakinlərini göstərir:

Mən qərib, fağır dərvişəm
Tanrı dağından gəlmişəm.
Ora dəvətlidir iş-peşəm -
Haqq yolu ondan keçəcək (15, 95)

–misralarında şair bir gün hər kəsin tanrıçılığ tapınacağına, haqq yolunun ondan keçdiyini yazır.

Şair Mustafa Qulə Bala Rüstəm Behrudi yaradıcılığına nəzər yetirərək ona yazdığı şeirdə türkçü şairin poeziyasına məxsus xırdalıqlara toxunmuşdur:

gəlib
Haqqa sığınan
Dərviş,
Cismin Dağdan
güc almış,
Ruhun Göydən

pərvəriş (40,15).

Şair şeirlərində həm türkçüdür, həm sufi, həm şaman. Onun poeziyasında milli Turançılıq ideyası onun digər ideyalarına mane olmur, hətta bir-birini dəstəkləyir, biri digər üçün qapı rolunu oynayır. Böyük türkoloq Tofiq Hacıyev bu məsələyə belə yanaşır: "Rüstəm Behrudinin şair səsində, poeziya nəfəsində bu günümüz üçün çox gərəkli olan iki aydın çalar var, bu iki çalar-türklük və nəsimiçilik oxucunun duyğularını, zehnini iki qol kimi qucaqlayır" (51, 5).

Şair hürufilər kimi "Mən"ini uca tutur, modernizmi isə unutmayaraq "Mən"ində itir, bəzən özündən uzaqlaşır:

Mən bir "mənəm", "məndə" itdim,
Yox olub mən yenə bitdim.
Yolçuyam – baş alıb getdim,
Yol, yol daşına qalacaq (15,164).

Bu şeirdən də göründüyü kimi, Rüstəm Behrudi "mən"ində yoxa çıxır, dünya, insan, təbiət onun üçün öz mənasızlığını itirir.

Digər şeir nümunələrinə də əsasən isə deyə bilərik ki, Rüstəm Behrudi özü-özündən qaçmağı xoşlayır. Bəzən bunu açıq, bəzən isə sətraltı mənalarla ifadə edir. "Şair tövbəyə sığmaz" şeirində özündən qaçan şairi görürük:

"Mən"dən qaçıb sığındım
"Mən" adlı bir qələmə (15, 127).

Bunu bəzən birbaşa, bəzən isə "İçimdəki bir külək" şeirindəki kimi qapalı şəkildə yazır:

Yoxam, mən burda yoxam,
Özüm deyiləm yəni.
İçimdəki bir külək,
Alıb apardı məni (15, 186)

Rüstəm Behrudi yaradıcılığında Tanrı –Allah paralelliyi də səciyyəvidir:

Tanrısı, Allahı yox,
Millətə bax, xalqa baxaraq
Taxtı viran olacaq,
Gör nə qədər Allah var (15, 14).

R.Behrudi şeiriyyətində Tanrı məfhumu ilə yanaşı, Allah da işlənir. Bəzən eyni poetik funksiyanı yerinə yetirsə də, cüzi fərqlərlə də verilir. Allah məfhumu Rüstəm Behrudi üçün özüllü istinadgahdır. O hesab edir ki, tanrısından qoparılan xalq məfhə məhkumdur. Müstəmləkədə yaşadığımız müddətdə Allaha qarşı çıxmaq xalqın milli-mənəvi dəyərlərinə, dininə, folkloruna, dilinə, əlifbasına uzadılan əllər və dillər idi. Rüstəm Behrudi isə şeirlərində Tanrıya tapınaraq milli kimliyinə də sahib çıxmış olurdu. Onun poeziyası Tanrıya münasibət-müraciətin dərin konturlarını cızır:

Ey Tanrım sal nurunu,
Ruhum hüzn içində,
Bəsdi daha gizləndin
Özün özün içində (15, 77).

Misralarında şair Tanrını müəmmalı olduğu qədər də, çoxfunksiyalı, çoxquruluşlu varlıq kimi təsvir edir.

Türkçülükdən qaynaqlanan Tanrıçılıq bəzən İslam dinindən gələn İblis və Mələk motivləri ilə vəhdətdə verilir:

Sən iblisdin, mələkdin?
Ruhuma şübhə əkdin.
Tanrıyla olan əhdi.
Kim pozubdu?” Kim?! Adı?! (10, 79)

İblis və Mələk motivləri Rüstəm Behrudinin tənhalıq mövzusunda yazılan şeirlərin tərkib hissəsinə daxildir. “Mən İblisə söz versəm də”, “İblis”, “Mələk”, “Tanrım, sənin qapını bir mələk açdı”, “37 yaş” və s. şeirlərində bunu görə bilərik:

Ey tənha, yalnız adam,
Ey mənə oxşayan kəs!
Adəmdən, Nuhdan bəri
Cavabını axtarır
o göylərdən gələn səs (10, 163).

Şair bu motivli şeirlərdə ənənəvi mövzulardan kənara çıxır, ədəbi əsərlərdə yaradılan bədheybət, qorxunc İblisdən fərqli bir obraz canlandırır. Rüstəm Behrudi poeziyasındakı İblis o qədər də vahiməli deyil, yeri gəldikcə İblis və Mələk eyni pillədə durur. Şair bəzi şeirlərində insanı yarı İblis, yarı mələk olan məxluq hesab edir. Şairə görə, həyat harmoniyasında bu vacib şərtdir. “Onun fikrincə, İblis xofu olmazsa, “dua, tövbə, savab, günah” tərəziləri itən təkbaşına həyat “sərsəm” kimi mövcud olar. Bütövlükdə İblis haqqında yazılmış şeirləri ilə, Rüstəm Behrudi dünya ədəbiyyatının əbədi motivi olan bu mövzunun üzərindən mövcud pərdəni çəkmiş, ona yeni məna verməyi bacarmışdır. “(30, 23**)**. “İblislə qol-boyun” adlı şeirdə bu motivi görə bilirik:

Kim danışsa, haqq adından,
Demək indi çıxıb qandan
Mələklərin qanadından
Süzülən qandan danışım
Haqq özü bir yoldu. Bir oyun –
Kim desə haqqa yol qoyun
Mən də iblislə qol-boyun
Bədəndə candan danışım (10, 201-202).

Misralardan da aydın görünür ki, bu şeirdə xeyirlə şərin mübarizəsi motivi əks olunmamışdır. Şair insanın içindəki iblislə mələyin dinc yaşamasının tərəfdarıdır. Ümumiyyətlə, Rüstəm Behrudi Mələk və İblis motivlərində yazılan şeirlərində filosof kimi çıxış edir.

Rüstəm Behrudi poeziyasında dinlər və din kitablarına –Qurana, İncilə və başqalarına münasibət birmənalı deyil.

Bu nə cür məmləkətdi,
Nə söz desəm qan çıxır
İblisin də cibindən
İncil və Quran çıxır (15, 78)

– deyən şair din yolu ilə gedərək pis əməllər görənlərə münasibət göstərir. Buna təəssüf edən şair ürəkağrısıyla "Turan ölür yerindən, Təbrizdə İran çıxır" deyir. Şairin ağrı-acısını, təəssüf hissini bu misralarda rahatlıqla duymaq olur.

Milli və ənənəvi motivlər türkçü şairin poeziyası üçün səciyyəvidir. Milli motivlərin əksi Rüstəm Behrudi poeziyası üçün xarakterik cəhətlərdəndir. Rüstəm Behrudi şeirinin kökü min illərə söykənir, xalq düşüncəsindən qidalanır, milli motivdən qaynaqlanır. Rüstəm Behrudi yaradıcılığında Dədə Qorqud müdrikliyi, şaman duası, türk təfəkkürü boylanır. "O, millətin dastan və nağıl dövrünü yaşamaqdadır. Gah göytürkləri törədən doqquz budaqlı ağacın altında, gah Oğuz Xaqana oğullar verən qutsal işığın içindədir" (67). Türk dastanlarında yer alan milli motivlər Rüstəm Behrudi yaradıcılığının da özəyini təşkil edir. Məlumdur ki, Türk təfəkküründən qaynaqlanan mifoloji düşüncələrdə yer alan kultlar ədəbiyyatda motiv kimi əksini tapmışdır. Rüstəm Behrudi yaradıcılığında da kultlarla bağlı motivlər geniş yer tutur. Kultlarla bağlı motivlər daha çox türkçülüklə bağlı olduğu üçün birinci yarımfəsildə bu haqda geniş bəhs etdik.

R.Behrudi poeziyasında bədii orijinallıq öz həllini tapır. Şairin dili canlı, əlvan və emosionaldır. O, bədii təsvir vasitələrindən, təzadlardan, bənzətmələrdən, bədii sual və xitablardan məharətlə istifadə edir. Behrudi poeziyasındakı bədii təsvir və

ifadə vasitələri onun poeziyasına obrazlılıq, temperamentlik gətirir. Heç zaman duymadığımız bədii təsvir və ifadə vasitələrinin zənginliyi R.Behrudi yaradıcılığını daha da maraqlı edir:

Ağacdan üzülən yarpaq bil məni,
Sonradan istəsən lap al-yaşıl gey.
Məni sözlərimə büküb dəfn eylə
Bil ki, ayrılıqdan başlayır hər şey (10, 197).

Sözə büküb dəfn etmək, sözü kəfən kimi görmək nə klassik, nə də müasir əsərlərimizdə öz əksini tapmışdır.

"Sizi çağırıram" şeiri fərqli poetik ifadələr vasitəsilə şairin iç dünyasını açır, oxucularla tanış edir:

Özüm olammıram, olammıram mən,
Ruhum da bədəndə-qəfəsdə quşdu...
Deyirlər, sözümdən dəlilik yağır, –
Bu ömrüm bir qəfil ölümə tuşdu (15, 73).

"Ruhun bədəndə quş olması" fikri poeziya üçün tanışdır, klassik əsərlərdə də rast gəldiyimiz bu ifadənin şairin modernist ruhda yazdığı şeirdə qarşımıza çıxması bizi təəccübləndirir. Bu ifadədə ənənələrə söykənən şair ondan sonrakı misrada işlənən "sözümdən dəlilik yağır" mübaliğəsi ilə bəndin ruhunu təzələyir.

Şair dilə, sözə, qələmə qiymət verir. "Qələm" şeirində qələmə and içir:

And olsun qələmə"
And olsun içimdəki
Hüznə, kədərə, ələmə (15, 117).

Görkəmli ədib Mirzə Cəlilin "Anamın kitabı" əsərindən təsirlənərək yazdığı "Ata dili" şeirində dilimizi müqəddəs, "Tanrı dili" hesab edən şair ərəb, fars

dillərində yazılan ədəbiyyata – sözə sərt reaksiya verir, bu günə qədər müstəmləkəçilik siyasəti ilə başqa-başqa dillərdə yazılan ədəbiyyata, sənədlərə görə atalarımızı qınayır, anamızın yad qadın olduğunu dilə gətirir:

Min illər atamın zoruna durdum,
Bu gün də əllərdə dilim-dilimsən.
Gördünmü sən mənim ana dilim yox,
Sən mənim müqəddəs "Ata dilim"sən?! (15, 39)

Vaqif Bayatlıya həsr olunan "Təkbaşına yürüyən adam" şeirində maraqlı ifadə və təsvir vasitələri öz bədii həllini tapır:

Ölməmişdən əvvəl
Gözlərində ölümün
Şəklini gəzdirən
O adam kimdi elə?!
O adam kimdi elə... (15, 198)

nümunəsində maraqlı təsvir və ifadə vasitələri rastımıza çıxır. İnsanın ömrünün sonunu "Ölümün gözlərdə gəzdirilməsi" anlayışı ilə ifadə olunması bədii ədəbiyyat üçün yenidir.

Klassik ədəbiyyatda ölümün təsviri kimi payızın verilməsini Behrudi yaradıcılığında da görürük. "Payız", "45 yaşın payızı", "Sevəcək hər şeyi payız bir azdan" şeirlərində şairin həsrət duyğuları sezilir. Lakin bu poetiklikdə də şair yeni olmağı bacarır.

Yenə payız – pəncərəmdə küləklər...
Ölən yarpaq sapsarı bir qəm dadır.
Ağacların o sərgərdan ruhudu
Külək belə qəriblikdə oynadır (15, 252)

–bəndində şair “yarpaqların qəm dadması”, “küləklərin ağacların sərgərdan ruhunu oynatması” kimi orijinal ifadələr işlədir.

“Ay Allah, gör necə mənə oxşayır” şeirində şair fəsillərdəki təbiəti təsvir edərək özünü ilk qara, açan gilənara, çılpaq ağaclara, günəşə oxşadaraq yazır:

Beləcə çox şeydə özümü tapdım,
İçimdə baş-başa sevinc, qəm, kədər
Bu cür oxşayış inan, nə vaxtsa
Dəli eyləyəcək məni bəlkə də (15, 245).

Nümunələrdən də aydın olur ki, Rüstəm Behrudi poeziyasında təbiət təsvirləri önəmli yer tutur. Bu məqama diqqət yetirən akademik İsa Həbibbəyli haqlı olaraq yazır ki, ilin fəsillərinə həsr edilmiş şeirləri Rüstəm Behrudinin özünəməxsus poetik ovqatını mənalandırmağa xidmət edir. O, qışdan soyuqluq, ilk bahardan oyanış, yay fəslindən qızmar mühit, payızdan isə ayrılıq kimi söz açır” (30,23).

Behrudi poeziyası üçün səciyyəvi cəhətlər sırasında şeirlərə nəsrlə epiqrafların verilməsidir. Bu epiqraflar məzmunca şeirlərlə həmahənglik təşkil edir.

“Göy adamları”  şeirində –“Sən göy adamısan, mən də günah içində əzab çəkən yer adamı. Bəlkə sən mənim günahlarımı təmizləyə gəlmisən” (15, 221)

“Bu şəhərdə kimsə yox” şeirində –“Bakı! Əsrliyimin və azadlığımın şəhəri...Bu şəhərdə qalmaq üçün salam verməyə, çıxıb getmək üçün vidalaşmağa bir kimsə yox” (15, 225).

Buduq xalqının nümayəndəsi Əbülfət bəy əfəndiyə həsr etdiyi “Alıb başımı getsəm” şeirində –“Mən mütləq çıxıb getməliyəm. Ancaq kimə, hara. Durduğum yer, çıxıb getmək istədiyim yerdi, bəlkə də” (15, 229).

“Sərxoş və boş qədəh” şeirində –“İçimdə əbədiyyət və ölüm qorxusu, sevda və unudulmaq əzabı bir-birinə qarışıb. Adam olduğumu unutmuşam daha. Mən adam deyiləm, ruhum mənim” (15,299).

Bu epiqraflar arasında digər yazıçıların da sözləri təşkil edir. Məsələn:

"Qatilim olacaqsan" şeirində Nihal Atsızdan epiqraf verilmişdir:

"Yorğun və kimsəsiz ölümün baxçasındayam" (15,297).

"Şair tövbəyə sığmaz" şeirində isə epiqrafı da şeirlə vermişdir:

Sözə yüklədim dərdimi,
Söz Tanrı çatmış bir ocaq.
Sözdü dünyanın əvvəli
Sonuna da söz qalacaq (15, 127).

Ümumiyyətlə, şair sözə çox böyük önəm verir. Digər şeirlərində də sözün qüdrətinin şahidi oluruq.

Şairin oğluna həsr etdiyi "Mən əsgər istədim tanrıdan ancaq" şeirində də epiqraf şeirlə verilmişdir:

Sinəmdə dağ kimi kədərim durur,
Nə qədər desəm də boşalmayacaq
Hamı öz payına övlad istədi,
Mən əsgər istədim Tanrıdan ancaq (15, 56).

Bundan başqa, şair qızına, qardaşına, dostlarına şeirlər həsr etmiş, öz hiss və duyğularını bu şeirlərlə ifadə etmişdir.

Şairin qızı Ayselə yazdığı "Apar məni buralardan" şeirində ən təmiz ata-qız sevgisini, ülvi hisləri görürük. Nəsrlə yazılmış epiqrafla başlayan bu şeirdə şam, yel (klassik əsərlərdə səba) kimi sufi şeir terminlərinə də rast gəlirik:

Məni qardaş bil dərd ilə,
Bil, gəl bircə yol səhv elə,
Andlarım and deyil, əfv eylə
Apar məni buralardan (15, 209)

Şeirdə biz atadan daha çox dost obrazını görürük. Şair qızına qardaş, sirdaş, yoldaş olmaq istəyir, ondan kömək istəyir, bundan çəkinmir.

Rüstəm Behrudi poeziyasının gücü,  şair kimi böyüklüyü məhz bu ülvi hisləri oxucuya doğru çatdırmasındadır. Onun poeziyası ədəbiyyatımız üçün önəmli və yeni səhifə açmışdır. Modernist şair eyni zamanda ənənələrə, milli kökə də bağlı sənətkardır. Müasir ədəbiyyatda isə ənənələrə sadiq qalaraq yeniliklər yaratmaq çox çətindir. Lakin Rüstəm Behrudi layiqincə bu işin öhdəsindən gəlmişdir. O, elə bir şairdir ki, özündən öncəki poeziya ilə sonrakı – yeni şeiriyyətə körpü rolunu oynayır. Onları bir nöqtədə birləşdirən şair ənənəni qırılmağa imkan vermir, yenilərini isə bu binanın üzərində inşa edir. Ona görə də Rüstəm Behrudi poeziyası həm yaşlıların, həm də gənclərin könüllərini oxşayır.

# NƏTİCƏ

Dissertasiya işinin nəticəsi olaraq söyləyə bilərik ki, türkçülük ideologiya olub türk xalqlarının milli mənafeyini, məqsədini, amalını özündə cəmləşdirir. Türk xalq adət-ənənələrini sevən, dilinə, kökünə sahib çıxan, türkçülük ideologiyasını yaşadan insanlara isə türkçü deyilir.

"Türkçülük" anlayışı ilə bağlı elmi, publisistik və bədii ədəbiyyatlarda dəqiq, vahid bir qayda yoxdur. Bu anlayışın paraleli olaraq, "turançılıq" termini də mövcuddur. ilə də qarşılaşırıq. Hər kəs bu anlayışları bir cür izah etmiş, müxtəlif qaydalar ortaya çıxmışdır. Türk dilli xalqların ədəbiyyatlarında, eləcə də Azərbaycanda da türkçülüyün mahiyyəti ilə bağlı dolaşıq fikirlər ortaya çıxmış, müxtəlif terminlər, qarışıq qaydalar, izahlar yazılmışdır.

İsmayıl Qaspıralı, Əli bəy Hüseynzadə, Ziya Göyalp, Əhməd bəy Ağaoğlu, Yusuf Akçura, Nihal Atsız və digərlərinin əsərləri ilə türküçülüyün mahiyyətini, eləcə də, bu ideologiyanın əsaslarını öyrənirik.

Türkçülüyün elmi-nəzəri ədəbiyyatlarda bir neçə şərhinə rast gəlirik:

– Türkçülüyün etnik milli hərəkat kimi özünütəsdiq etməsi kimi görürlər.

– Türkçülüyün maarifçilik ideyalarına xidmət göstərərək türk mədəniyyətini, adət-ənənəsini yaydığını yazırlar.

– Türkçülüyün sosial-siyasi, azadlıq hərəkatı nəticəsində "Turan" yaratmaq ideyası kimi şərh edirlər. Bu fikir daha çox ideolojidir və nisbətən, yeni yaranmışdır. Xüsusi olaraq qeyd edək ki, Turançılıq türkçülüyün son hədəfi, başqa sözlə, son mərhələsidir.

Sadaladığımız bu fikirlər "dildə birlik, fikirdə birlik, əməldə birlik" kimi "üç tərz siyasət" konsepsiyasında cəmləşir və "Tükçülük, islamçılıq və demokratiya" olaraq üzə çıxır.

Azərbaycanda Məmməd Əmin Rəsulzadə, Türkiyədə Mustafa Kamal Atatürk, Krımda Seyitəhmət Krımər türkçülüyü dövlət məfkurəsi, amalı olaraq irəli sürürdülər.

XX əsrin əvvəllərindən başlayaraq, Azərbaycan ədəbiyyatında türkçülüyü ehtiva edən əsərlər yazılmağa başlanıldı. Hüseyn Cavid, Əhməd Cavad, Ümgülsüm Sadıqzadə, Xəlil Rza Ulutürk, Nəbi Xəzri, Məmməd Araz kimi şairlər türkçülüyü təbliğ edən şeirlər yazmışlar. Vaqif Bayatlı Odər, Rüstəm Behrudi kimi modernistlərin də yaradıcılığında türkçülük müxtəlif formalarda öz əksini tapır.

Tədiqat işi Rüstəm Behrudi yaradıcılığı əsasında aparıldığı üçün onun yaradıcılığına geniş nəzər salındı. Gəldiyimiz nəticələri ümumiləşdirə bilərik:

– Rüstəm Behrudi yaradıcılığında türkçülük mifoloji aspektdə əksini tapır. Belə ki, şairin poeziyasında türküçülüyün kultları hesab olunan qurd, ağac və bu kimi motivlər obraza çevrilir.

– Türklərin qədim dini olan tanrıçılıq, şamanizm şairin şeir motivlərinin başında dayanır.

– Onun poeziyasında xalq ənənələri, folklor nümunələri yaşadılır. Rüstəm Behrudi şeirinin kökü min illərə söykənir, xalq düşüncəsindən qidalanır, milli motivdən qaynaqlanır. Rüstəm Behrudi yaradıcılığında Dədə Qorqud müdrikliyi, şaman duası, türk təfəkkürü boylanaraq dastan və nağılları şeirə çevirməyi bacarmışdır.

– Onun yaradıcılığında türkçülüklə, şamanizmlə bağlı olan qurd, ağac və s., eləcə də dərviş, iblis, mələk və s. motivlərdən söz açılır.

– Rüstəm Behrudi poeziyasında milli ənənələr fəlsəfi fikirlərlə əks olunmuşdur.

– Şairin yaradıcılığında tarix "boylanır". Qədim türklər yeni türkçülərlə birləşərək obrazlaşdırılır.

– Bu poeziyada Dədə Qorqud, Oğuz kimi dastan qəhrəmanlarını, Uzun Həsən, Şah İsmayıl kimi şahları görə bilərik.

– Behrudi poeziyası üçün səciyyəvi cəhətlər sırasında şeirlərə nəsrlə epiqrafların əlavə edilməsidir. Bu epiqraflar məzmun cəhətdən şeirlə səsləşir.

– Behrudi şeiriyyətində maraqlı təsvir və ifadə vasitələri rastımıza çıxır. Tədqiqat işində həmin təsvir və ifadə vasitələri təhlil edilir.

Beləliklə, gəldiyimiz nəticələrə görə, Rüstəm Behrudi yaradıcılığında türkçülük müxtəlif istiqamətlərdə əksini tapır. Bu şeirlər həm poetiklik, həm də bədii məzmun cəhətdən ustalıqla qələmə alınmışdır. Rüstəm Behrudi poeziyasında yer alan bütün motivlər xalq yaradıcılığı və türk mifoloji dünyagörüşü ilə sıx bağlıdır. Ona görə də Rüstəm Behrudi yaradıcılığı fəlsəfi şeir kontekstində araşdırılanda bütün motivlərin ön planda tutulması vacibdir.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT:

**Azərbaycan dilində**


1. Abdulla B. Haqqın səsi. Bakı: Azərbaycan Dövlət nəşriyyatı, 1989, 144 s.
2. Abdullayev C., Hüseynoğlu T., Sultanlı V. Müasir Azərbaycan ədəbiyyatı (Ali məktəblər üçün dərslik) iki cilddə, II cild, Bakı: Bakı Universiteti nəşriyyatı, 2007, 564 s.
3. Axundov M.F. Əsərləri. 3 cilddə. II cild. Bakı: Şərq-Qərb, 2005, 376 s.
4. Axundov M.F. Əsərləri. 3 cilddə. III cild. Bakı: Şərq-Qərb, 2005, 296 s.
5. Akçuraoğlu Yusuf. Türkçülüyün tarixi. Bakı, 2006, 143 s.
6. Azərbaycanın türkçülük və Azərbaycançılıq problemləri. Bakı: Ay-Ulduz, 1998, 157 s.
7. Bakıxanov A. Gülüstani-İrəm. Bakı:Xatun Plyus, 2010, 302 s.
8. Bayqara H. Azərbaycanın istiqlal mücadiləsi tarixi.Bakı. Azərbaycan Dövlət Nəşriyyatı, 1992.s.56-57
9. Behrudi R. Bir dəli ayrılıq kimi.Bakı:Qanun, 2014,230 s.
10. Behrudi R. İblis mələkdən gözəldir. Bakı: Dünya nəşriyyatı, 1997, 236 s.
11. Behrudi R. Salam dar ağacı. Bakı: Azərnəşr, 2007.- 528 s.
12. Behrudi R. Şaman duası: şeirlər və poema. Bakı: Yazıçı, 1988.- 153 s.
13. Behrudi R. Yaddaşlara yazın: şeirlər. Bakı: Yazıçı, 1986,72 s.
14. Behrudi R. Çətindir göyü sevib, qayıdıb yerin olmaq: və yaxud bu belə olmamalıydı //Azadlıq.- 2014.- 10 iyul.- s.13.
15. Behrudi R. Şaman duasından dar ağacına. Bakı: “Xan” nəşriyyatı. 2017, 336 s.
16. Bəydili C. Türk mifoloji sözlüyü. Bakı: Elm, 2003, 418s.
17. Cabbarlı N. Cəfər Cabbarlı mühacirət ədəbiyyatşünaslığında // Azərbaycan jurnalı, 2002,N.9, s.178-179
18. Cavad Ə. Seçilmiş əsərlər. Bakı: Şərq-Qərb, 2005, 296 s.
19. Cavid H. Əsərləri. Beş cilddə. I cild. Bakı: Lider nəşriyyat, 2005, 256 s.

20. Cavid H. Əsərləri. Beş cilddə. II cild. Bakı: Lider nəşriyyat, 2005, 352 s.

21. Çəmənzəminli Y.V. Əsərləri.Üç cilddə. III cild. Bakı: 2005. 439 s.

22. Əfəndiyev T. Azərbaycan romantiklərinin yaradıcılığında türkçülük // 525-ci qəzet, 2019, 4 oktyabr, № 133, s. 6

23. Əhmədli R. Azərbaycan milli-demokratik dövlətçilik məfkurəsi – türkçülük, müasirlik, islamçılıq. Bakı: Elm, 2007, 280 s.

24. Əliyev K. Ruh poeziyası yaxud Rüstəm Behrudinin özü haqqında bilmədikləri // “Ədəbiyyat” qəzeti, 15 oktyabr, 2016 cı il, s. 26

25. Əliyev R. Riyazi mifologiya. Bakı: Nurlan, 2008, 180 s.

26. Əliyeva (Kəngərli) A. Azərbaycan romantiklərinin yaradıcılığında türkçülük. Bakı, 2002, 334 s.

27. Əmrahov M.İ. XX əsrdə Azərbaycanda milli-azadlıq hərəkatı. Ali məktəblər üçün dərslik. Bakı:ADPU-nun nəşriyyatı, 2009, 371 s.

28. Əsgərli Ə . Milli ideal mücahidi, Bakı:Elm, 2005, 419 s.

29. Göyalp Z. Türkçülüyün Əsasları. Azərbaycan türkcəsində hazırlayan, ön söz və açıqlamaların müəllifi: Elman Mustafa. Bakı: Xəzər Universiteti, 2010, 208 s.

30. Həbibbəyli İ. Bütövlük və genişlik // “525-ci qəzet”, 2015, 12 sentyabr, s.22-23;26

31. “Həyat” qəzeti, 1906, N.21

32. Hüseynzadə Ə. Seçilmiş əsərləri. BakI: Şərq-qərb, 2007, 480 s.

33. Xəlil A. Novruzun strukturu: arxaik ritual, təqvim və bayram //Dədə Qorqud. Elmi-ədəbi toplu, I. Bakı: Nurlan, 2010, s.31-69.

34. “Kaspi” qəzeti. 1905, N.57

35. “Kaspi” qəzeti. 1907, N.26

36. Kitabi-Dədə Qorqud. Əsil və sadələşdirilmiş mətnlər. Bakı: Öndər, 2004, 376 s.

37. Köçərli F.Azərbaycan ədəbiyyatı. II cilddə / I cild. Bakı: Avrasiya press, 2005, 560 s.

38. Qaspiralı İ. Dildə, fikirdə, işdə birlik. İ.Qaspıralı 1851-1914. Bakı: Qartal, 2002, 242 s.

39. Məmmədzadə M.Azərbaycan milli xartiyası //”Azərbaycan” jurnalı, 1991, N.4, s.133-148

40. Mustafa Q.B. Rüstəm Behrudiyə açıq məktub // Təzadlar.- 2011.- 27 dekabr.- s.15.

41. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı. 2 cilddə / I cild. Bakı: Elm və təhsil, 2016, 800 s.

42. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı. 2 cilddə / II cild. Bakı: Elm və təhsil, 2016, 1088 s.

43. Ordu marşları, Bakı: 1919, s. 6.

44. Osmanlı V. Azərbaycan romantizmi. Bədii-estetik problemlər. II c., Bakı, Elm, 2014, 464 s.

45. Rəsulzadə M.Ə.Panturanizm haqqında. //”Azərbaycan” jurnalı, 1991, N6, s. 102-121

46. Saraçlı (Həsənova) M. Azərbaycan maarifçiliyi və türkçülük // “Bakı Universitetinin xəbərləri”, 2005, N4, s.51-57

47. Sadıq İ. Göy və Tanrı, Göytürk və Göy Tanrı terminləri haqqında (şumer və türk epik mətnləri əsasında)// Türkologiya , 2013, №1, s. 23-32

48. Səhhət A. Əsərləri, 2 cilddə / I cild, Bakı: Azərnəşr, 1975, 314 s.

49. Sultan X İnam şairi, zaman şairi, şaman şairi // “525-ci qəzet”, 2012, 10 aprel, s.7.

50. Süleymanlı M. Azərbaycan kulturoloji fikir tarixindən (XX əsrin əvvəlləri). Bakı:Nafta-Press, 2011, 208 s.

51. Şaman nəvəsi – Rüstəm Behrudi: metodik vəsait / tərt.ed. A.Əliyeva; red. K.Ağazadə; ix. red. və burax. məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası. Bakı, 2017, 24 s.

52. Şərifova S.Ş. Klassiklər və müasirlər söz müstəvisində. Bakı: Elm və təhsil, 2018, 568 s.

53. Umgülsüm S. Əsərləri. Bakı: Letterpress, 2010, 120 s.

54. Vahabzadə B. Seçilmiş əsərlər. İki cilddə. I cild (Şeirlər). Bakı, "Öndər nəşriyyat", 2004, 328 s.

55. Vəzirov Y.Azərbaycan ədəbiyyatına bir nəzər.Azərbaycan jurnalı.1989, N.8, s. 11

**Türk dilində:**

56. Akçura Y.Üç tarzi siyaset. İstanbul, 1987, 72 s.

57. Devlet N.Rusiya türklerinin milli mücadile tarixi. Ankara, 1985, 350 s.

58. Göyalp Z. Kızıl Elma. Ankara: Ötüken, 156 s.

59. Mehmetzade M.B.Milli Azerbaycan hareketi.Ankara, 1991, 240 s.

60. Tarih dergisi, 2000, N.10, s.17-24

61. Tuncer H.Türk yurdu üzerine bir inceleme.Ankara: Kültür ve turizm bakanlığı, 1990, 547 s.

62. Zenkovski S.A.Rusyada pantürkizm və müslümanlık.İstanbul, 1971, 432 s.

**İnternet resursu:**

63. Atsız N. Türkçülük nədir? http://sonuncuesr.com/turkculuk/

64. Behrudi R. Yaddaşlarda şeir kimi qalmaq –http://senet.az/yaddaslarda-seir-kimi-qalmaq-rustəm-behrudi/

65. Behrudi R "Dağlar duman olmadan" – "1 şeir/2 rakurs". http://edebiyyatqazeti.az/news/edebi-tenqid/601-daglar-duman-olmadan-rustem-behrudi

66. Turan sevdalı Azərbaycan şairi. http://www.cia.az/news-view/53319-Turan-sevdali-Azerbaycan-shairi)

67. Sultanova X. Rüstəm Behrudi yaradıcılığında mifopoetik ənənə. https://525.az/site/?name=xeber&news_id=56228#gsc.tab=0

68. https://www.amazon.com/Der-besorgte-Baum-im-Walde/dp/3960140592

**РАШИДА АДАЛЕТ КЫЗЫ РАШИДЛИ**

# ТЮРКИЗМ В ПОЭЗИИ РУСТАМА БЕХРУДИ

## РЕЗЮМЕ

Научно-исследовательская работа «Тюркизм в поэзии Рустама Бехруди» состоит из введения, двух глав, заключения и списка использованнойлитературы.

Первая глава называется «Становление и развитие тюркизма». Эта глава состоит из двух параграфов: «Идеология тюркизма и его исторические корни» и «Тюркизм в азербайджанской литературе». В первомпараграфе рассматриваются теоретические аспекты и исторические корни тюркизма. Во втором параграфе изучается история возникновения и развития тюркизма в азербайджанской литературе, рассматриваются работы, темой которых является тюркизм.

Вторая глава озаглавлена «Поэтическое понимание идеи языка, родины, нации в поэзии Рустама Бехруди». Эта глава также разделена на две части. В первом параграфепод названием «Воплощение идей тюркизма в стихах Р. Бехруди» исследуются темы шаманизма и тенгризма. В ходе анализа изучаются культы, связанные с тюркизмом в работах Рустама Бехруди. Во втором параграфе главы под названием «История и современность в поэзии Р. Бехруди» исследуются написанные в единстве истории и современности понятия «дервиш», «суфизм». Изучаются национальные и традиционные мотивы, характерные для поэзии поэта. В работе также были анализированы средства художественного описания и выражения в стихах Р. Бехруди.

В заключении диссертации обобщены полученные в процессе исследования результаты. Использованные научные, публицистические, художественные источники отражены в «Списке литературы».

## RASHIDA ADALAT GIZI RASHIDLI

## THE TURKISM IN THE POETRY OF RUSTAM BEHRUDI

## SUMMARY

The research work on theme “The Turkism in the poetry of Rustam Behrudi” consist of “Introduction”, two chapters, “Conclusion” and “Bibliography”.

First chapter is called “The formation and development of Turkic movement”. This chapter consist of two half-chapters: “The ideology of Turkism and its historical roots” and “The Turkism in Azerbaijan literature”. In the first half chapter there is examined the theoretical aspects and historical roots of Turkism. In the second half chapter the history of the establishment and development of Turkism in Azerbaijani literature is studied. There are considered the works on theme Turkism.

The second chapter is called “Poetic understanding of the idea of language, homeland, nationality in Rustam Behrudi's poetry”. This chapter also consist of two half chapters. In the first half chapter named “The embodiment of the Turkism ideas in the poems of R. Behrudi” topics of shamanism and divinity are analyzed. During the analysis, cults related to Turkism in the works of Rustam Behrudi are studied. In the second half chapter named “The history and modernism in Rustam Behrudi poetry” there is analyzed the Dervish, Sufism, written in the unity of history and modernity. There are studied the national and traditional motives typical of the Turkish poet's poetry, also the means of artistic description and expression in R. Behrudi's poems.

The “Conclusion” of the dissertation summarizes the findings of the research.

The scientific, publicist, figurative sources are reflected in “Bibliography”.